QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 146 (5618) 4 **avqsut** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Hər bir vətəndaş Prezident qayğısını öz rifahında hiss edir

*Əlillərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı növbəti SƏRƏNCAM*



Səh 2

3

"Kommersant": "Rusiyanın Ermənistana 100 milyon dollarlıq silah verməsi sual altındadır"



6

İl ərzində əlil və şəhid ailələrinə veriləcək mənzillərin sayı 500-ü ötəcək



16

"Barselona" razılıq verdi: Vidal "Sevilya"ya qayıdır



səs
www.sesqazeti.az
facebook Ses Media Holding
4 avqust 2018-ci il

# Hər bir vətəndaş Prezident qayğısını öz rifahında hiss edir

*Əlillərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı növbəti SƏRƏNCAM*







***Məlum olduğu kimi, avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlilləri ilə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın görüşü keçirildi. Görüşdə 35 Qarabağ müharibəsi əlilləri və şəhid ailələri mənzillərlə, təmin edildi, 136 vətəndaşa "Khazar LX" avtomobili bağışlandı.***

Ölkə Prezidenti İlham Əliyevin həyata keçirdiyi və respublikamıza bütün sahələrdə uğurlar gətirən siyasətin əsasında insan amili, Azərbaycan vətəndaşlarının rifah halının yaxşılaşdırılması məsələsi dayanır. Prezidentin 2018-ci il 3 avqust Sərəncamı da deyilənlərin məntiqi nəticəsidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ölkəmizin ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında imzaladığı Sərəncamda deyilir: "Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədi ilə qərara alıram: 1. "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 20 iyun tarixli 569 nömrəli Sərəncamının 1-ci hissəsinin icrası ilə əlaqədar, Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20 (iyirmi) milyon manat ayrılsın."

## Sosial siyasət Azərbaycanda prioritet məsələlərdəndir

Göründüyü kimi, Prezident İlham Əliyevin əhalinin sosial problemlərinin həllinə xüsusi diqqət və qayğı göstərməsi, digər sosial qruplar kimi, əlillərin də həyat şəraitinin yaxşılaşmasına, onların ictimai hüquqlarının bərpa olunmasına şərait yaradıb. Təsadüfi deyil ki, iqtisadi inkişaf tempinə görə dünyanın gündəmində olan Azərbaycan, həm də sosial dövlət kimi xarakterizə olunur. Bu, o deməkdir ki, dövlət siyasətinin bütün istiqamətlərində və sahələrində mərkəzdə, məhz Azərbaycan vətəndaşı dayanır. Ölkəmizdə sosial təminatla bağlı çox uğurlu işlər həyata keçirilib. Məhz həyata keçirilən sosial-iqtisadi inkişaf siyasətinin, sosialyönümlü layihələrin qanunauyğun nəticəsi kimi, Azərbaycanda insanların rifah halı daha da yaxşılaşdırılıb, əhalinin məşğulluq səviyyəsi artıb, işsizlik əhəmiyyətli dərəcədə aşağı düşüb. Ümumiyyətlə, Azərbaycanın davamlı olaraq, həyata keçirdiyi geniş məzmunlu sosial siyasətin əsas xarakterik cəhətlərindən biri də odur ki, ölkəmizdə dövlət qayğısı əhalinin bütün təbəqələrini əhatə edir. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, dövlət qayğısına ehtiyacı olan bütün vətəndaşlar dövlət tərəfindən dəstəklənir.

Elə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Qaradağ rayonunda keçirilən Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin təqdimatı mərasimində dövlət başçısı ölkədə sosial siyasətin uğurla aparıldığını və bunun davam edəcəyini vurğulayıb. Ölkə rəhbəri müharibədən, işğaldan əziyyət çəkən köçkün və qaçqın soydaşlarımızın da dövlət tərəfindən qayğı ilə əhatə olunduğunu vurğulayıb. Əlavə edib ki, sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir.

Milli Məclisin Əmək və Sosial Siyasət komitəsinin üzvü Musa Quliyev mövzu ilə bağlı bildirib ki, Azərbaycan dövlətinin sosial siyasəti daim vətəndaşlarımızın müdafiəsinə və sosial rifahının yüksəlməsinə yönəlib: "Heç də təsadüfi deyil ki, ölkə başçısı bütün çıxışlarında "Bizim siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır" - fikrini, xüsusilə, vurğulayır. Ölkəmizdə 2003-cü ildən indiyə qədər ötən dövrdə olduqca böyük və sürətli iqtisadi inkişaf əldə olunub. Bunu beynəlxalq ekspertlər də etiraf edirlər. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi də bunun daha bir əlamətdar göstəricisidir. Bu kateqoriyadan olanlara dövlət daim xüsusi qayğı göstərib. Prezident həmin mərasimdə vurğuladı ki, son iyirmi il ərzində şəhid ailələrinə və müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil, altı mindən çox minik maşını verilib. Dövlət başçısı qeyd etdi ki, bu, dövlətin qayğısının təzahürüdür və bu siyasət hazırda da davam etdirilir. Sosial siyasət Azərbaycanda prioritet məsələlərdən biridir".

Beləliklə, Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu siyasət və növbəti Sərəncam deyilənlərin yeni bir nümunəsidir. Əlbəttə, düzgün dövlətçilik siyasəti, iqtisadiyyatın inkişafının təmin edilməsi, beynəlxalq birlikdə Azərbaycanın layiqli yerinin tutulması üçün gərgin fəaliyyət lazımdır. Təbii ki, xalqımız bunun daim şahidi olur və Azərbaycanın qazandığı uğurlarla qürur duyur.

**RƏFİQƏ HÜSEYNOVA**

# Populyar amerikan radio-şousunun efirində Avropanın enerji təhlükəsizliyinin təminində Azərbaycanın rolundan bəhs edilib



SOCAR-ın sərmayələr və marketinq üzrə vitse-prezidenti Elşad Nəsirov populyar amerikan radio şousu "John Batchelor Show"da Azərbaycanın neft-qaz sektorunda qazandığı nailiyyətlərdən bəhs edib. AZƏRTAC xəbər verir ki, Bakıda səfərdə olan radioaparıcı Con Batçelor ölkəmizin ABŞ, digər Qərb tərəfdaşları, habelə region üçün əhəmiyyətindən danışaraq qeyd edib ki, Qərblə Şərq arasındakı əlverişli məkanda yerləşən Azərbaycan Avrasiyanı transformasiya etmək imkanına malikdir.

Azərbaycanın energetika siyasətindən bəhs edən Elşad Nəsirov deyib ki, hazırda ölkəmiz təbii qaz ixracatçısına çevrilir. Xəzər dənizin sahilindən Gürcüstan, Türkiyə, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyaya uzanan boru xətti ilə Avropaya qaz tədarük ediləcək. SOCAR rəsmisi daha sonra "John Batchelor Show"nun dinləyicilərinə Azərbaycanın ixrac boru kəmərləri şəbəkəsinin tarixi haqqında məlumat verib. O bildirib ki, Bakıdan Batumiyə uzanan ilk boru kəməri 1907-ci ildə çəkilib.

E.Nəsirov diqqətə çatdırıb ki, Cənub Qaz Dəhlizi bütün dünyada ən iri və bahalı layihələrdən biridir. Yeddi ölkə, on iki sərmayəçi və alıcıları birləşdirən Cənub Qaz Dəhlizinin təsir dairəsi çox böyük olacaq. Məsələn, Azərbaycan Albaniyanın energetika tarixində ilk dəfə olaraq bu ölkəyə qaz tədarük edəcək. Cənub Qaz Dəhlizi boyu yerləşən bütün ölkələr ondan gəlir əldə edəcəklər.

SOCAR-ın vitse-prezidenti Azərbaycanın qazandığı nailiyyətlərdən də ətraflı bəhs edib. Vurğulayıb ki, ölkəmizdə qadınlara seçki hüququ bir çox Avropa ölkələrindən tez verilib. O diqqətə çatdırıb ki, 30 ilə yaxındır torpaqlarımızın işğalını davam etdirən Ermənistan istisna olmaqla, Azərbaycan bütün qonşu ölkələrlə mehriban dostluq münasibətləri saxlayır.

Söhbət əsnasında Con Batçelor dinləyicilərinə bildirib ki, Avropanın enerji təhlükəsizliyi öz başlanğıcını Azərbaycandan götürür. Aparıcı onu da qeyd edib ki, ABŞ Prezidenti Donald Tramp bu yaxınlarda İtaliyanın Baş naziri Cüzeppe Konte ilə görüşü zamanı Trans-Adriatik qaz boru kəmərinin Avropa üçün əhəmiyyətini də müzakirə edib. Bu, Azərbaycandan Avropaya çəkilən boru kəmərinin ABŞ-ın Avropadakı müttəfiqlərinin enerji təhlükəsizliyi üçün mühüm olmasını göstərir.

Avropanın enerji təhlükəsizliyi siyasətindən danışan E.Nəsirov qeyd edib ki, enerji ehtiyatları idxalında bir neçə alternativin olması hər bir dövlət üçün zəruridir və bu da, öz növbəsində, müxtəlif siyasi təsirlərə qarşı təhlükəsizliyi təmin edir. Prezident Trampın Avropaya alternativ mənbələrdən enerji ehtiyatları tədarükünü dəstəkləməsi "köhnə qitə" üçün çox vacibdir.



# Rusiyalı gənclərin bir qrupunun Azərbaycana səfəri başa çatıb

Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin (AMOR) sədri Leyla Əliyevanın dəvəti ilə Rusiya Federasiyasının bir qrup dövlət qulluqçularından, qeyri-hökumət gənclər təşkilatlarının üzvlərindən və ali məktəblərin tələbələrindən ibarət nümayəndə heyətinin Azərbaycana səfəri başa çatıb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iyulun 24-dən 31-dək davam edən səfər çərçivəsində nümayəndə heyəti əvvəlcə Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını və Şəhidlər xiyabanını ziyarət edib.

Sonra nümayəndə heyətinin üzvləri ilə Gənclər və İdman Nazirliyində görüş keçirilib. Görüşdə gənclər və idman nazirinin müavini İntiqam Babayev Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasəti, müxtəlif layihələr, əldə edilmiş uğurlar və beynəlxalq əlaqələr haqqında qonaqlara ətraflı məlumat verib, onların suallarını cavablandırıb.

Nümayəndə heyətinin üzvləri səfər barədə təəssüratlarını bölüşüblər. Moskva şəhərinin mədəniyyət departamentinin direktor müavini Vladimir Filippov səmimi görüşə və ətraflı məlumata görə minnətdarlığını bildirib. M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Botanika bağının direktoru Aleksey Reteyum, AMOR-un idarə heyətinin üzvü Emin Hacıyev də görüşdə iştirak ediblər. Görüşün sonunda qonaqlara Gənclər və İdman Nazirliyinin xatirə hədiyyələri təqdim olunub.

Növbəti gün Rusiya Federasiyasının gənclərdən ibarət nümayəndə heyətinin mədəniyyət nazirinin müavini Rafiq Bayramov ilə görüşü keçirilib. Görüşdə Azərbaycanda və Rusiyada keçirilən müxtəlif mədəni layihələr barədə ətraflı fikir mübadiləsi aparılıb. Moskva Hökumətinin xarici iqtisadi və beynəlxalq əlaqələr departamentinin rəhbəri Oleq Şutenko qarşılıqlı mədəniyyət günlərinin keçirilməsini ölkələrimiz və paytaxtlarımız üçün əhəmiyyət daşıdığını vurğulayıb.

Moskva İstirahət və Turizm Agentliyinin dövlət mədəniyyət müəssisəsinin direktoru Vasili Ovçinnikov, Moskva şəhərinin mədəniyyət departamentinin əməkdaşı Artur Şukurovski, "Road to Moscow" təşkilatının inkişaf məsələləri üzrə direktoru Lyudmila Tsoy da görüşdə iştirak ediblər. Növbəti gün nümayəndə heyətinin üzvləri Heydər Əliyev Mərkəzini ziyarət ediblər. Rusiyalı gənclər Mərkəzdəki Heydər Əliyev Muzeyi ilə tanış olublar.

Burada qonaqlara Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin mənalı həyatının və çoxşaxəli siyasi fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlar barədə ətraflı məlumat verilib. Heydər Əliyev Mərkəzindəki "Azərbaycan inciləri" və "Mini Azərbaycan" sərgiləri ilə tanışlıq da qonaqlarda xoş təəssürat oyadıb.

Nümayəndə heyətinin üzvləri Heydər Əliyev Fondunun vitse-prezidenti, Rusiyanın Azərbaycanlı Gənclər Birliyinin sədri Leyla Əliyeva ilə görüşərək dəvət üçün təşəkkürlərini bildirib, səfərlə bağlı təəssüratlarını bölüşüblər. Növbəti günlərdə qonaqlar "JARA-2018" Beynəlxalq Musiqi Festivalının açılışında iştirak ediblər. Rusiyalı gənclər, həmçinin Milli Azərbaycan Tarixi Muzeyinin daimi ekspozisiyası, eləcə də Hacı Zeynalabdin Tağıyevin ev-muzeyi, Muzey Mərkəzi, Xalça Muzeyi, İçərişəhər, o cümlədən Qız qalası, Şirvanşahlar sarayı ilə tanış olublar.

# Mariya Zaxarova: "JARA-2018" birləşdirən beynəlxalq festivaldır

***İyulun 26-dan 29-dək Bakıda keçirilmiş "JARA-2018" beynəlxalq musiqi festivalı humanitar sahədə həyata keçirilməli olan real əməkdaşlığın gözəl nümunəsidir. Trend-in məlumatına görə, bunu Rusiya Xarici İşlər Nazirliyinin mətbuat katibi Mariya Zaxarova mətbuat konfransı zamanı deyib.***



O deyib: "Bu, ayıran yox, birləşdirən beynəlxalq festivaldır. Bu tədbir göstərir ki, bizim xüsusiyyətlərimiz fərqlilikləri vurğulamamalıdır, əksinə bizim xüsusiyyətlərimiz bizi birləşdirə bilər. Biz adətləri, ənənələri və tariximizi məhz bu birləşdirici məqsədlər üçün istifadə etməliyik. Mənim gördüklərim məhz bunları ifadə edir".

# "Kommersant": "Rusiyanın Ermənistana 100 milyon dollarlıq silah verməsi sual altındadır"



Ermənistanın yeni rəhbərliyinin öz sələflərini siyasi təqibə məruz qoyması Moskva ilə Yerevan arasında münasibətlərə xələl gətirməkdə davam edir. AZƏRTAC "Kommersant" qəzetinə istinadla xəbər verir ki, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Yuri Xaçaturovun məhkəmə istintaqına cəlb olunması Rusiya Federasiyasının dövlət strukturlarında narazılığa səbəb olub. Kreml Ermənistan rəhbərliyinin addımını bu hərbi blokun nüfuzuna vurulan ciddi zərbə kimi qiymətləndirir və indi KTMT-nin rəhbəri başqa ölkənin nümayəndəsi təyin oluna bilər.

Qəzetin yazdığına görə, Ermənistana 100 milyon dollarlıq silah verilməsi barədə razılaşma da sual altındadır. Məqalədə deyilir: "Rusiyanın müdafiə sənayesinin iki müəssisənin yüksək vəzifəli şəxsləri bu kontraktın sual altında olduğunu bildiriblər. Bu kontraktın şərtlərinə görə, Ermənistana atıcı silahlar, mühəndis rabitəsi avadanlığı və şəxsi heyətin daşınması üçün nəqliyyat vasitələri verilməli idi. İndi bütün bu planlar havadan asılı vəziyyətdə qalıb".

# Gürcüstan ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib

Gürcüstan ilə Azərbaycan arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Acarıstan Muxtar Respublikası Hökumətinin yeni təyin olunmuş sədri Tornike Ricvadze Azərbaycanın Batumidəki baş konsulu Pərviz İsmayılzadə ilə görüşdə deyib.

Baş konsul Pərviz İsmayılzadə T.Ricvadzeni yeni vəzifəyə təyin olunması münasibətilə təbrik edib. O, Batumidə olduğu qısa müddətdə şəhər sakinlərinin qonaqpərvərliyindən məmnunluğunu bildirib. Baş konsul, həmçinin Azərbaycan Respublikasının Naxçıvan şəhəri ilə Gürcüstanın Batumi şəhəri arasında siyasi, iqtisadi və turizm əlaqələrinin inkişaf etdiyini vurğulayıb. Bronxial astmadan əziyyət çəkən uşaqların Naxçıvan Duzdağ Fizioterapiya Mərkəzində pulsuz müalicəsinin təşkil edildiyini bildirib.



T.Ricvadze Naxçıvan Muxtar Respublikası ilə inkişaf edən sıx əməkdaşlığı qeyd edib, Naxçıvan şəhərinə birbaşa reyslərin yaradılması planları barədə danışıb. O, ölkələrimiz arasındakı münasibətlərin daha da inkişafı üçün səylərini əsirgəməyəcəyini bildirib.

# İşğalçı ölkə rəhbərliyinə ciddi mesajlar

## *Prezident İlham Əliyev: "Əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik"*



***Azərbaycan Prezidenti İlham Əliyev avqustun 1-də Bakının Qaradağ rayonunun Lökbatan qəsəbəsində Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimində çıxışı zamanı Ermənistan rəhbərliyinin ünvanına xəbərdarlıq xarakterli ciddi mesajlar səsləndirib. Azərbaycan Prezidenti bildirib ki, Dağlıq Qarabağ probleminin həllinin bir yolu var: "Ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir. Dağlıq Qarabağ bizim əzəli torpağımızdır. Bunu tarix deyir, beynəlxalq hüquq deyir və bütün dünya dövlətləri ölkəmizin ərazi bütövlüyünü tanıyır və dəstəkləyir. Keçən ay Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı ilə bağlı Azərbaycana çox böyük dəstək ifadə olunmuşdur.***

Bu, bizim növbəti diplomatik qələbəmizdir. Eyni zamanda, keçən ay NATO-nun zirvə görüşünün nəticəsi olaraq qəbul edilmiş bəyannamədə Azərbaycanın ərazi bütövlüyünə dəstək göstərilib. Yəni bunlar çox ciddi siyasi sənədlərdir, həqiqəti və beynəlxalq hüququ əks etdirən sənədlərdir. Eyni zamanda, işğalçı ölkəyə göndərilən çox ciddi siqnallardır. Onlar bilsinlər ki, mötəbər beynəlxalq təşkilatlar bu məsələni diqqətdə saxlayır və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Münaqişənin həlli yalnız bu prinsiplər əsasında ola bilər və olmalıdır".

İşğalçı ölkənin ağır günlər yaşadığını vurğulayan ölkə başçıs bildirib ki, iyirmi il Ermənistana rəhbərlik etmiş kriminal xunta rejimi çöküb: "Onların işğalçı siyasəti iflasa uğrayıb. Onların bu vəziyyətə düşməsinin əsas səbəbi işğal siyasətidir. Çünki əgər işğal siyasəti olmasaydı, Ermənistan regional layihələrdən təcrid edilməyəcəkdi və beləliklə, bizim imkanlarımızdan faydalana bilərdi. Məhz işğalçılıq siyasətinə görə Ermənistan bu gün bu ağır, təcrid edilmiş vəziyyətdədir və iqtisadi inkişaf üçün heç bir perspektiv yoxdur. O vaxta qədər ki, Azərbaycanla münasibətlər normallaşmayacaq. Normallaşmanın da bir yolu var - işğalçı dövlət bizim torpaqlarımızdan dərhal və qeyd-şərtsiz çıxmalıdır. Necə ki, dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurası 25 il əvvəl qətnamə qəbul edib və orada açıq-aydın göstərilir ki, erməni silahlı qüvvələri Azərbaycan torpaqlarından dərhal, qeyd-şərtsiz çıxarılmalıdır. Bu qətnamələr qüvvədədir və qüvvədə qalacaq. Ona görə münaqişənin həlli üçün yol, bax, bu yoldur".

Azərbaycan Prezidenti Ermənistanın yeni hökumətinə xəbərdalıq xarakterli ciddi mesajlarını bir daha vurğulayıb ki, deyilənləri yaxşı anlasın: "Əvvəlki kriminal xunta rejiminin səhvlərini buraxmamalıdır. Düzdür, yeni hökumət indi daxili işlərlə daha çox məşğuldur, ancaq bildirməliyəm ki, onlar tərəfindən səslənən ziddiyyətli bəyanatlar həm bizdə, həm bu məsələ ilə məşğul olan ölkələrdə və beynəlxalq təşkilatlarda təəccüb doğurur. Çünki bir-birini təkzib edən bu bəyanatlar başadüşülən deyil. Bir tərəfdən deyirlər ki, Azərbaycan Ermənistanla yox, Dağlıq Qarabağın qondarma rejimi ilə danışıqlar aparmalıdır. Bu, ümumiyyətlə, qəbuledilməzdir və bu, elə bir təklifdir ki, bu təklifi verən tərəf bəri başdan bilir ki, bu, qəbul edilməyəcək. Digər tərəfdən, bu təklif vasitəçilər tərəfindən heç vaxt qəbul edilməyəcək. Üçüncü tərəfdən, o bəyanatdan bir müddət keçəndən sonra Azərbaycan və Ermənistan xarici işlər nazirləri görüşür və danışıqlara başlayır. Yəni tamamilə bir-birini təkzib edən, bir-birinə zidd olan yanaşmadır. Əlbəttə, biz başa düşürük, yeni hökumətə müəyyən qədər vaxt lazımdır ki, beynəlxalq münasibətlərdə mövcud olan praktikanı düzgün təhlil etsin. Ancaq əlbəttə ki, bu bəyanatlar sülh prosesinə vurulmuş növbəti zərbələrdir və bütün məsuliyyəti Ermənistan rəhbərliyinin üzərinə düşür. Çünki onlar işğal siyasətini davam etdirmək fikrindədirlər".

Göründüyü kimi, Prezident İlham Əliyev Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın ünvanına "kriminal xunta rejimi" işlədərək, yeni hakimiyyətin xunta rejiminin səhvlərini buraxmamaq mesajını verməklə, bir daha bildirib ki, "əgər Ermənistan rəhbərliyi bundan sonra da danışıqların uzadılması ilə məşğul olacaqsa, biz öz təcrid siyasətimizi davam etdirəcəyik".

**A.SƏMƏDOVA**

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Məhərrəm Qasımlının "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan aşıq sənətinin tədqiqi sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Məhərrəm Paşa oğlu Qasımlı "Şöhrət" ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılması tədbirləri haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

# Paşinyan siyasətin kədərli faktı kimi: Ermənistan-Rusiya münasibətlərinin böhranı

***İrəvanda insanlar küçəyə çıxıb etiraz edəndə başlarına nələrin gələ biləcəyini təsəvvür belə edə bilməyiblər. İndi onların əksəriyyəti bu suala cavab axtarırlar. Rəsmi İrəvan isə "məxməri inqilab"ın bəhrələrindən faydalanmaqdadır. İndi N.Paşinyan bir zamanlar ona pislik etmiş adamları cəzalandırmaqla məşğuldur. Əlbəttə, o, bunları demokratiya və insan haqları naminə etdiyini söyləyir. Artıq 2008-ci ildə N.Paşinyanı həbs etdirənlərdən R.Koçaryan həbsə atılıb. Sırada general Y.Xaçaturov vardır. Növbə kimindir? Kim olur-olsun, Moskva narazılığını bildirir. O, İrəvanın məsləhətləşmədən addım atmasını həzm edə bilmir. Normal reaksiyadır, çünki Kreml buna adət edib. İrəvan isə şıltaqlıq ssenarisinə keçib. Hazırda rusiyalı ekspertlər bir zamanlar ağız dolusu tərifləbdikləri ermənilərə ağızlarına gələni deyirlər. Onları qəzəbləndirən həmişə qul olan birilərinin sərbəst hərəkət etmək istəyidir. Əslində isə ermənilərin bu cür hərəkətlər edə bilməsi üçün şəraiti Rusiya və Qərb uzun illər boyu yaradıblar. Məsələnin bu aspekti üzərində geniş dayanmaq istərdik.***




### Qulun üsyanı: saxta dostluğun məntiqi sonu

Nikol Paşinyan baş nazir olandan hərəkətləri Moskvanı təəccübləndirir və qıcıqlandırır. Yeni Ermənistan iqtidarı bütün istiqamətlərdə Rusiyanın maraqlarına uyğun gəlməyən addımlar atır. Onlardan daha çox narahatlıq doğuranı antirusiya əhval-ruhiyyəli kadrlara yüksək vəzifələrin verilməsi və paralel olaraq Ermənistanda Rusiyanın dayaqlarının laxladılmasıdır. Hər iki məqamla bağlı Rusiya tərəfi bir neçə dəfə mövqeyini bildirib və N.Paşinyan hakimiyyətinə xəbərdarlığını edib. Buna baxmayaraq, N.Paşinyan Kremlə tərs gələn siyasətini davam etdirməkdədir.

Son olaraq baş nazir Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) hazırkı baş katibi Yuri Xaçaturovun həbs olunmasına qərar verib. Y.Xaçaturov bu vəzifəni 2017-ci ildən tutur. O, həmin dövrə qədər Ermənistan ordusunun baş qərargah rəisi, milli təhlükəsizlik şurasının katibi və İrəvan hərbi qarnizonunun komandiri olub. Əslən Gürcüstanın Tetri-Skaro rayonundandır. 2018-ci il iyulun 28-də ona ittiham irəli sürülüb.

İttihamda 2008-ci il martın 1-2-də İrəvanda etirazçıların güllələboran edilməsinə əmr verməsi göstərilib. Həmin hadisələrdə 10 nəfər həlak olmuş, 200 nəfər isə yaralanmışdı. Etiraz aksiyaları prezident seçkisinin saxtalaşdırılmasına cavab olaraq təşkil edilmişdi. O zaman S.Sarkisyan növbəti dəfə prezident seçilmişdi. Xatırladaq ki, Ermənistan hakimiyyəti keçmiş prezident R.Koçaryanı da həmin ittihamla həbs edib. R.Koçaryan başqaları ilə əlbir olub, Ermənistan hakimiyyətini dəyişməkdə günahlandırılır. Y.Xaçaturov isə konkret atəş əmri verən hərbçi olaraq məhkəməyə çıxarılır.

Öncə onu vurğulayaq ki, Rusiya Ermənistan rəhbərliyinin bu addımlarına sərt reaksiya verib. Ekspertlər KTMT-ni NATO ilə müqayisə edərək sual edirlər: "Norveç Y.Stoltenberqin həbsinə qərar verərdimi?" Və ya NATO ilə məsləhətləşmədən belə bir addım atardımı? Qətiyyən atmazdı. Onda bəs Ermənistan hakimiyyəti hansı məntiqlə Moskva ilə məsləhətləşmədən və bunu açıq bildirmədən KTM-nin baş katibini məhkəməyə çəkir? Üstəlik, Moskvadan onu KTMT-nin rəhbərliyindən uzaqlaşdırmağı istəyir. Moskva isə İrəvandan rəsmi tələb istəyir. S.Lavrov bu barədə Ermənistanın xarici işlər naziri Z.Mnatsakanyana bildirib. Bütün bunlardan rusiyalı ekspertlər belə bir nəticə çıxarırlar: N.Paşinyan sərt antirusiya siyasəti aparır. Məsələn, Siyasi Tədqiqatlar İnstitutunun direktoru Sergey Markovun fikrincə, N.Paşinyan Rusiya ilə bağlı dediklərində səmimi deyil. O, dostluqdan alovlu danışır, lakin rusiyayönümlü siyasətçiləri təqib edir. "KTMT-nin rəsmi şəxsinin təqib edilməsi Rusiya rəhbərliyi ilə münasibətlərin pis olmasının təzahürüdür" (bax: Zaçem Paşinən poşel na rezko antirossiyskiy şaq / Vz.ru, 27 iyul 2018).

Mütəxəssis sözlərinə davam edərək vurğulayır ki, N.Paşinyan Rusiyaya münasibətində səmimi olsaydı, geniş müzakirəyə çıxarmadan Moskva ilə Y.Xaçaturov məsələsindən danışardı. Ancaq onun seçdiyi yol göstərir ki, "Ermənistanda antirusiyayönümlü siyasətçi hakimiyyətə gəlib" (bax: əvvəlki mənbəyə).

### Moskva qayğılıdır: sədaqətsizlik və ya nankorluğun sərhədi

Sergey Markov fikirlərinə yekun vuraraq deyib: "Paşinyanın siyasəti kədərli faktdır. Biz münasibətlərə yenidən baxmalıyıq. Yaxşı ki, Rusiyanın Ermənistanda həyati əhəmiyyətli maraqları yoxdur. Hətta Paşinyan amerikan qoşunlarını Ermənistana dəvət etsə belə, bunun Rusiyanın maraqlarına həddən artıq güclü zərbə olmayacağına əminəm" (bax: əvvəlki mənbəyə).

Rusiya-Ermənistan münasibətlərinin bu vəziyyətə düşməsi təsadüfi deyil. Məsələnin iki aspekti var. Birincisi odur ki, Moskva artıq 100 ildən çoxdur ki, ermənilərə havadarlıq edir. Coğrafi olaraq yanlış yerdə "Ermənistan" adlanan qondarma dövlət yaratdı. Bu qondarma dövlət Azərbaycan torpaqlarında quraşdırıldı. Sonra müxtəlif üsullarla həm Azərbaycandan əlavə torpaqlar alıb Ermənistana qatdılar, həm də siyasi və mədəni olaraq onları başımızın üstünə çıxarmağa çalışdılar. Nəticədə, həmişə kənardan güclü dəstək görən nankor, ərköyün, özündənrazı, kimsəni bəyənməyən, ətrafdakı bütün ölkələrə qarşı ərazi və mədəniyyət iddiası olan sürü formalaşdı. İndi bu sürü özünü azad sayır, güclü hesab edir və onu bu səviyyəyə gətirən ruslara qarşı düşmən mövqedə durur. Çünki yeni ağa axtarışındadır ki, işğal etdiyi əraziləri saxlaya bilsin. Yəni Rusiya nankor ermənilərdən haqlı cavabını alır.

İkincisi ondan ibarətdir ki, Rusiya kimi, Qərb də ermənilərin vəhşiliyinə, aqressivliyinə, orta əsr şovinizminə, təkəbbürlü davranışlarına göz yumdu. Ermənistanı qətiyyən layiq olmadığı halda "yarımazad ölkə" kimi təqdim etməyə çalışdılar. Orada baş verən insan haqlarının kütləvi və kobud surətdə pozulmasını demokratik hal kimi qiymətləndirdilər. Məsələn, Ermənistanın nə kimi ölkə olduğunu milyonlarla insanların (müsəlmanların) öz yurdundan deportasiya edilməsi göstərir. Günahsız insanların kütləvi qətli, qadınların, qocaların işgəncəyə məruz qalması, hələ də yüzlərlə dinc sakinin əsirlikdə saxlanması fakt deyilmi? Bütün bunlara "demokratik" Qərb necə reaksiya verir?

Demək olar ki, laqeydliklə susur və hətta bu barədə faktları dinləmək belə istəmir. Biz Azərbaycan parlamentində Xocalı soyqırımı ilə bağlı kadrlar nümayiş etdirilərkən qərbli diplomatların zaldan çıxması faktını əsla unuda bilmərik. Biz dəfələrlə qərbli siyasət adamlarının, ekspertlərin, QHT nümayəndələrinin Azərbaycanla bağlı qərəzli mövqeyini yaddan çıxara bilmərik. Biz onların ermənilərin yeri gəldi-gəlmədi xristian olaraq müdafiə etmələrini qəbul edə bilmərik.

Bu kontekstdə xatırladaq ki, məhz Qərbin insan haqlarından dəm vuran təşkilatları 2008-ci ildə Ermənistanda prezident seçkilərini demokratik adlandırmış, onu beynəlxalq hüquqa uyğun hesab etmişdilər. O zaman Azərbaycan tərəfinin iradlarına və konkret faktlar təqdim etməsinə baxmayaraq, AŞPA Ermənistanla bağlı layiq olduğu qərarı qəbul etmədi. Əksinə, ermənilərin başına yeni sığallar çəkdi.

İndi tarixin istehzasıdır ki, Qərbin çocuğu N.Paşinyan sübut edir ki, Ermənistanda erməni siyasətçiləri ilə yanaşı, Qərbin və Rusiyanın ekspertləri, siyasi liderləri, insan haqlarından və demokratiyadan dəm vuran kəsimləri də cinayət törədiblər. Çünki onlar həqiqəti bilə-bilə gizlədiblər. Günahsız ermənilərin qanının tökülməsinə göz yumublar. Məgər onlar sarkisyanları, koçaryanları, xaçaturovları və başqa cinayətkarları saxlaya bilməzdilər? Onlardan insan haqlarına hörmət etməyi tələb edə bilməzdilər? Çox rahatlıqla edə bilərdilər. Lakin həmin dairələr o zaman necə davrandılarsa, indi də eyni hərəkəti edirlər.

Belə ki, indi yalnız öz maraqlarını güdürlər. Kreml Paşinyandan inciyir, Ağ Ev isə onu öz tərəfinə çəkmək arzusundadır. Hər iki tərəf həm vəd verir, həm də hədələyir. Ermənistan da həmişə olduğu kimi bazar daxilində satılmalı olan keyfiyyətsiz mal kimi qalıb ortada - bilmir özünü kimə və neçəyə sırısın.

N.Paşinyan komediyası bunlardan ibarətdir. O, erməni cəmiyyətinin həyatında keçici hadisədir və bəlkə də S.Markov haqlıdır - "kədərli faktdır"! Çünki Ermənistan o dərəcədə kənardan asılıdır ki, bu cür sərsəmlərin uzun müddət orada hakimiyyətdə qalması imkansızdır. Sonuc isə daha kədərli ola bilər. Sürətlə dəyişən geosiyasi dinamikanın küləkləri Ermənistan adlı dövləti quyunun dibinə sala bilər. Əlbəttə, onun havadarları çoxdur və güclüdür, lakin tarixin öz hökmü var!

**Newtimes.az**

# İl ərzində əlil və şəhid ailələrinə veriləcək mənzillərin sayı 500-ü ötəcək



Prezident İlham Əliyevin müharibə əlilləri və şəhid ailələrinə xüsusi qayğısı bu kateqoriyalardan olan vətəndaşların mənzillə təminatı proqramının da ildən-ilə güclənməsinə imkan verib. SİA-nın məlumatına görə, dövlət başçısı 1 avqust 2018-ci il tarixdə Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə daha 35 mənzilin, eyni zamanda Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə 136 avtomobilin təqdim olunması mərasimində son 20 il ərzində şəhid ailələrinə, müharibə əlillərinə 5500-dən çox fərdi ev və mənzil, müharibə əlillərinə 6 mindən çox minik avtomobili verildiyini bildirərək deyib: "İlin sonuna qədər nəzərdə tutulan rəqəm əlavə 170 mənzil və fərdi evdir. Bununla belə, nəzərə alsaq ki, hələ də növbədə kifayət qədər insan var, - təqribən 4 minə yaxın insan növbədədir, - mən əlavə vəsait ayıraraq bu il minimum daha 300 mənzilin alınması ilə bağlı qərar qəbul edəcəyəm".

Bununla əlaqədar Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 2 avqust 2018-ci il tarixli sərəncam imzalanıb.

Sərəncam Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20,0 (iyirmi) milyon manat ayrılmasını nəzərdə tutur.

Beləliklə, sərəncam ayrılacaq həmin vəsait hesabına Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən cari ildə əlavə olaraq minimum 300 mənzil alınmasına, nəticədə, bu il ərzində 500-dən çox mənzilin əlil və şəhid ailələrinə təqdim olunmasına imkan yaradır. Bu da 2018-ci ildə nazirlik tərəfindən Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə verilməsi nəzərdə tutulan mənzillərin sayının (207 mənzil) 2,4 dəfə artırılmasına imkan verir. Prezident İlham Əliyevin qeyd edilən sərəncamı Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinin mənzillə təminatında mühüm irəliləyişə şərait yaratmaqla, ümumən ölkəmizdə sosial rifah halının yaxşılaşdırılmasının, insan amilinin dövlət başçısının uğurlu siyasətinin mərkəzində dayandığını bir daha təsdiq edir.

# "Vətəndaşların həyat şəraitinin yaxşılaşmasına xüsusi önəm verilir"

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin apardığı siyasət vətəndaş amilinə söykənir və vətəndaşların sosial həyat şəraitinin yaxşılaşmasına xüsusi önəm verilir". Bunu SİA-ya açıqlamasında Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib.



Onun sözlərinə görə, Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında Prezident İlham Əliyevin Sərəncamı çox yüksək qiymətləndirilməlidir: "Prezidentin ehtiyat fondundan Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə 20,0 (iyirmi) milyon manat ayrılması kifayət qədər böyük bir məbləğdir. Ümumiyyətlə əlillərin, çernobıl, müharibə əlillərinin sosial həyat şəraitinin yaxşılaşdırılması istiqamətində atılan addımlar təqdirəlayiq haldır. Mən cənab Prezidentin bu Sərəncamını yüksək qiymətləndirirəm. Eləcə də bir neçə gün bundan qabaq Qarabağ, Böyük Vətən müharibələri, Çernobıl əlillərinə və şəhid ailələrinə mənzillərin və avtomobillərin verilməsi mərasimi oldu. Azərbaycan Prezidenti İlham Əliyev də həmin mərasimdə iştirak etdi. Hesab edirəm ki, Azərbaycan bu baxımdan da dünyanın ən inkişaf etmiş ölkələrindən biri kimi böyük nüfuza malikdir. Düşünürəm ki, cənab Prezidentin qarşıya qoyduğu bütün hədəflərə nail olunub. Bütün görülən işlər vətəndaşların sosial həyat şəraitinin yaxşılaşmasına yönəlmiş işlərdir".

# Yaponiyanın "Pavone" jurnalı Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunan məqalə yayıb






Yaponiyanın nüfuzlu "Pavone" jurnalında Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunan xüsusi məqalə dərc edilib. AZƏRTAC xəbər verir ki, "Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100 illiyi qeyd olunub" sərlövhəli məqalənin müəllifi jurnalın baş redaktoru Akira Matsudadır. Məqalədə Azərbaycanda 28 May - Respublika Günü, Xalq Cümhuriyyətinin yaradılmasının 100 illiyi münasibətilə Tokionun "Okura" otelində mayın 24-də səfirliyimiz tərəfindən keçirilən rəsmi qəbuldan bəhs edilir.

Tarixə ekskurs edən müəllif 1918-1920-ci illərdə müsəlman Şərqində ilk parlament respublika modeli əsasında qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti barədə ətraflı məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən 2018-ci ilin ölkəmizdə "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edildiyini, bununla əlaqədar həm ölkəmizdə, həm də onun hüdudlarından kənarda çoxsaylı tədbirlərin keçirildiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Cümhuriyyət müsəlman dünyası ilə yanaşı, Avropanın bir çox dövlətlərindən də əvvəl qadınlara səsvermə hüququ vermiş ilk dünyəvi dövlət olub. Cümhuriyyətin yaradılması Azərbaycan xalqının böyük nailiyyətidir. Məhz o zaman Azərbaycan dili rəsmi status alıb, dövlətin bayrağı və digər atributları qəbul edilib, Milli Ordu yaradılıb. Həmçinin Azərbaycan özünü dünyada tanıtmaq üçün fəal xarici siyasət aparıb.

1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsi və son illər Prezident İlham Əliyevin rəhbərliyi ilə qısa zaman ərzində sürətli inkişafa nail olması barədə də məqalədə geniş bəhs olunur. Müəllif, həmçinin Bakı şəhəri və onun görməli yerləri haqqında oxuculara ətraflı məlumat verir. Əlavə olaraq, məqalədə Azərbaycan - Yaponiya ikitərəfli münasibətləri, o cümlədən iki ölkənin regionları arasında əməkdaşlıq, "Itochu" və "Inpex" şirkətlərinin ölkəmizdə fəaliyyəti ilə bağlı məlumatlar da öz əksini tapıb.

# Millət vəkili: "Xaricdə qiymətlər Azərbaycandan qat-qat yüksəkdir"

"Ümumiyyətlə, Tarif Şurasının son qiymət artımı ilə bağlı qəbul etdiyi qərar əsaslı şəkildə qəbul olunub. Yəni bu zərurətdən irəli gəlmiş bir addım idi. Çünki Tarif Şurası təqdim olunmuş qiymətlə bağlı ümumi vəziyyətə baxıb və araşdırıb. Müəyyən olunub ki, Azərbaycanda ictimai nəqliyyatın qiyməti çox aşağı səviyyədədir. Bu qiymətlə ictimai nəqliyyatı idarə etmək, saxlamaq qeyri-mümkündür". Bunu SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib.



Onun sözlərinə görə, ictimai nəqliyyat həm də mütəmadi olaraq dövlət tərəfindən maliyyələşdirilir və dövlətin himayəsindədir: "Təbii ki, bu artıma ehtiyac var idi. Artım isə o qədər böyük artım deyildi. Qiymətlərin 20 qəpikdən-30 qəpiyə qaldırılması o qədər də böyük fərq deyil. Dünyada ictimai nəqliyyatda qiymətlər Azərbaycandan qat-qat yüksəkdir. Mən Tarif Şurasının qərarını normal qəbul edirəm. Bu məsələlərə siyasi don geyindirməyə və insanlar arasında narazılıq yaratmağa gəlincə deyə bilərəm ki, bu heç də düzgün hal deyil. Bu çox vacib iqtisadi və zərurətdən yaranmış bir qərardır".

Qeyd edək ki, ictimai nəqliyyatda sərnişindaşıma xidmətləri üzrə yeni tariflər təsdiq edilib. Tarif (qiymət) Şurasının iclasında müraciətlərə baxılıb və metro nəqliyyatında sərnişindaşıma xidmətinin tarifi 1 gediş üçün 30 qəpik, Bakı şəhərində, eləcə də digər şəhər və rayonlarda sərnişindaşıma xidməti tarifinin yuxarı həddi müntəzəm şəhərdaxili avtobus marşrutları üzrə 1 gediş üçün 30 qəpik, şəhərətrafı və qəsəbələrarası avtobus marşrutları üzrə məsafədən asılı olaraq 1 gediş üçün 30-90 qəpik, müntəzəm şəhərlərarası avtobus marşrutları üzrə 1 kilometr üçün 2,4 qəpik təsdiq edilib.

# Azərbaycan Şərq ilə Qərb arasında qapı və dözümlülük nümunəsidir

*Dünyada qloballaşma prosesi getdiyi bir zamanda milli mənəviyyat, tarixin qorunması, keçmişin bir irs olaraq yaşadılması, Azərbaycanın sürətli, dinamik inkişafı, sosial-iqtisadi uğurları beynəlxalq aləmə inteqrasiya olunduğumuz zamanda dünya ictimaiyyətinə geniş şəkildə çatdırılır və milli dəyərlərimizin təbliği istiqamətində ardıcıl işlər görülür.*



Çox çətin və taleyüklü sınaqlardan çıxaraq dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilən Azərbaycanda baş verən sıçrayışlardan, onun simasının gündən-günə dəyişməsindən, dünyanın nüfuzlu dövlətləri sırasında layiqli yer qazanmasından danışarkən, Heydər Əliyev Fondunun da fəaliyyətini vurğulamaq vacib məqamlardandır. Heydər Əliyev Fondu Azərbaycanın sosial inkişafına xidmət edən genişmiqyaslı proqram və layihələrin icraçısına çevrilib. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun Xoşməramlı Səfiri, Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyevanın fəaliyyəti, genişmiqyaslı layihələri nəticəsini verib. O, humanitar proqramları, idman, elm və texnologiya, ekologiya və sosial sahələrə yönəlmiş müxtəlif layihələri həyata keçirərək, yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi və mədəni inkişafına öz töhfəsini verir. Heydər Əliyev Fondu respublikada baş verən ictimai-mədəni proseslərin gedişində daim milli dövlətçilik mövqeyindən çıxış edərək, Azərbaycan əhalisinin sağlamlığı, xoşbəxtliyi, firavanlığı, sülh və əmin-amanlığın müdafiəsinə töhfələrini verir. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan, fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına və bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir.

Azərbaycan cəmiyyətində gənc nəslin biliklərə yiyələnməsini və ölkəmizin dünya təhsil sisteminə inteqrasiyasını prioritet məsələlərdən hesab edən təhsilin inkişafına yönəlmiş genişmiqyaslı proqram və layihələri qısa bir zaman məsafəsində böyük uğurlara səbəb oldu. “Uşaq evləri və internat məktəblərinin inkişafı” Proqramı çərçivəsində respublika üzrə onlarla uşaq müəssisəsi əsaslı şəkildə təmir edildi, yeni avadanlıqla təchiz olundu, əlavə yardımçı binalar tikildi və kommunal şərait yaxşılaşdırıldı. Fondun “Yeniləşən Azərbaycana yeni məktəb” Proqramı əsasında təhsil sahəsində mövcud olan problemlərin həllinə nail olundu. Müasir standartlara cavab verən təhsil kompleksləri yaratmaqla müasir standartlara cavab verən məktəb binası inşa olunub və yenidən qurulmuşdur. “Təhsilə dəstək” layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. “Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı” çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemləri daim diqqətdə saxlanılıb. Müasir tələblərə cavab verən uşaq evlərində inşa edilmiş hamam, üzgüçülük hovuzu, yay konsert meydançası, stadion, iclas, idman, rəqs salonları, həyətdəki yaşıllıqlar, uşaqların əl işləri muzey-sərgisi burada balacaların fiziki və əqli cəhətdən sağlam böyüməsi üçün hər cür şərait yaradıldığına, fondun xeyirxah fəaliyyətinin bəhrəsinə əyani sübutdur.

Heydər Əliyev Fondunun “Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların kənar edilməsi (deinstitusionalizasiya) və alternativ qayğı” layihəsi çərçivəsində görülən işlərin məntiqi olaraq uşaqların sağlamlığı, onların aldığı təhsilin səviyyəsi, xüsusən, gələcək taleyi, cəmiyyətimizdə rolu diqqətdə saxlanılmış və həlli istiqamətində işlər görülmüşdür. Qeyd edək ki, ən gözəl təmir olunmuş uşaq evi, ən müasir internat məktəbi heç vaxt ailəni, ailə mühitini əvəz edə bilməz. Azərbaycanda hər bir gəncin formalaşmasında və təhsilində ailənin rolu aparıcı olmuşdur. Bu da uşaq evləri və internat məktəblərində yaşayan uşaqların dövlət müəssisələrindən kənar edilməsidir. Bu istiqamətdə dövlət tərəfindən müxtəlif işlər görülür, beynəlxalq təşkilatların da tövsiyələri vardır. Dünyanın bir sıra inkişaf etmiş ölkələrində, demək olar ki, bu problem artıq həllini tapır və Azərbaycan onların təcrübəsinə istinad edir.

### “BU GÜN DƏ ÇOXKONFESSİYALI VƏ ÇOXMİLLƏTLİ AZƏRBAYCAN BU ƏNƏNƏLƏRƏ SADİQDİR VƏ BU, ƏN BÖYÜK SƏRVƏTLƏRDƏN BİRİDİR”

Heydər Əliyev Fondunun xüsusi diqqət yetirdiyi prioritet sahələrdən biri də ölkəmizdə tolerantlıq ənənələrinin qorunmasıdır. “Tolerantlığın ünvanı - Azərbaycan” layihəsi əsasında 2006-cı ildə Heydər Əliyev Fondunun təşəbbüsü ilə bərpa işləri aparılıb. Dini abidələrdən biri Binə qəsəbəsindəki Möhsün Səlim məscidi bərpa edilərək, istifadəyə verilib. Eyni zamanda, Mehriban Əliyevanın layihəsinə əsasən, Gəncə şəhərindəki Həzrəti Zeynəb məscidi yenidən qurulub. Qeyd olunan layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılıb. Layihənin digər tərkib hissəsi “Or-Avner” Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik Təhsil Mərkəzinin inşasıdır. Azərbaycanda məskunlaşan xalqların etnomədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi istiqamətində də Azərbaycanda görülən işlər, məhz müasir dövrümüzdə dövlətin bütün millətdən olan insanlara diqqət və qayğı ilə yanaşmasının nəticəsidir. Fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsi təmir və bərpa olunmuşdur.

Humanist, xeyriyyəçi layihələrilə dünya miqyasında tanınan və birmənalı olaraq, belə aksiyaların təşəbbüskarı kimi nüfuz qazanan Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva çoxşaxəli fəaliyyəti, genişmiqyaslı layihələri ilə beynəlxalq aləmdə əks-səda doğurub. “Azərbaycan - tolerantlığın ünvanı” layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpasında, bir sıra digər layihələrdə də təşəbbüskar olaraq iştirak edib. Bütün bunlar Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə ehtiva edir. Əsrlər boyu Şərq ilə Qərb arasında körpü rolunu oynayan Azərbaycan bütün millətlərə, dinlərə, mədəniyyətlərə böyük hörmətlə yanaşır. Mehriban xanım Əliyeva, müsahibələrinin birində dediyi kimi, dünyəvi müsəlman ölkəsi olan Azərbaycan yalnız xristian aləminə aid müqəddəs yerlərin və tarixi-mədəni abidələrin bərpasında iştirak etmir, eyni zamanda, ümumdünya əhəmiyyətli abidələri bərpa edir. Bu, fondun həyata keçirdiyi mühüm siyasətidir.

Roma katakombalarının bərpası ilə bağlı layihənin reallaşmasına dəstək olan Heydər Əliyev Fondu Azərbaycan ilə Müqəddəs Taxt-Tac arasındakı əlaqələrin möhkəmlənməsinə töhfələrini vermiş oldu. Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakomba arasında Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir. Bu addımın atılması xristian aləminin mühüm abidəsinə müsəlman dünyasının töhfəsi kim qiymətləndirilir.

Heydər Əliyev Fondu təkcə Vatikan və xristian aləmində deyil, bütün dünya mədəniyyətində böyük əhəmiyyət kəsb edən, ümumbəşəri mədəni irsə aid olan abidələrin bərpasında iştirak edir. Mehriban xanım Əliyeva çıxışların birində qeyd edib ki, Azərbaycanda bütün dövrlərdə ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar: “Bu gün də çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. 2002-ci ildə ölkəmizə səfəri zamanı Roma Papası II İohann Pavel Azərbaycanı Şərq ilə Qərb arasında qapı və dözümlülük nümunəsi adlandırmışdır”. Bu və ya digər görülən işlərin məntiqi olaraq, deyə bilərik ki, Mehriban xanım Əliyevanın nəcib təşəbbüsləri, layihələri Şərq ilə Qərb dünyası arasında ən böyük vasitəçidir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Dünya siyasətinin regionallaşması: Yaxın Şərqdə fəsadları və bəşəriyyətin gələcəyi

***Analitiklər dünya miqyasında geosiyasi proseslərin ümumi xarakteristikasını verməyə çalışırlar. Meydana müxtəlif versiyalar atılır. Qloballaşma prosesinin geosiyasəti hansı ssenari üzrə inkişaf etdirdiyi məsələsi də birmənalı izah olunmur. Bunun fonunda ümumi geosiyasi mənzərədən çox regionallaşma adlanan prosesin üstünlük təşkil etdiyi tezisi irəli sürülür. Regionallaşma coğrafi meyarlara görə deyil, sosial-siyasi əlamətlərə əsasən baş verir. Bu zaman insanlar konkret ölkələri deyil, regionları seçirlər. Həmin tendensiyanın da özünəməxsus siyasi, iqtisadi, mədəni və əxlaqi problemləri meydana gəlir. Yaxın Şərqin timsalında regionallaşmanın mümkün geosiyasi nəticələri haqqında təsəvvür əldə etmək olar. Bu bucaq altında böyük dövlətlərin bu regionda nüfuz uğrunda apardıqları mübarizəyə nəzər saldıqda, maraqlı özəlliklərə rast gəlmək olur. Onların üzərində daha geniş dayanmağa ehtiyac var.***




## Universallaşma və fraqmentləşmə: müasir mərhələdə hansı dominantdır?

Dünya siyasəti tərkib hissələri arasında sıx bağlılıq olan mürəkkəb sistemi xatırladır. Qloballaşma dövründə bu, hansısa universal siyasi kursun formalaşması imkanlarının daha da artması kimi görünə bilər. Lakin faktlar başqa reallığı ortaya qoyur. Mütəxəssislər dünya siyasətində regionallaşma tendensiyasının gücləndiyi qənaətindədirlər. K.Stoyçev ("Gallup International"ın prezidenti) və A.Raytsev ("İvan Hacıyski" Sosiologiya İnstitutunun direktoru) yazırlar: "Qlobal iqtisadiyyatı qlobal siyasi tənzimləmə müşayiət etmir" (bax: Kanço Stoyçev, Andrey Rayçev. Şansı novoqo "Vestfalğskoqo mira" / Rossiə v qlobalğnoy politike, 18 iyul 2018).

Onlar bu vəziyyətin yaxın perspektivdə dəyişəcəyinə də ümid etmirlər. Səbəblərdən biri kimi, dünyada situasiyanın uzun müddətə dəyişməyəcəyi və bunun da arxasında siyasi səhnənin əsas fiqurlarının artıq müəyyənləşdirildiyi vurğulanır. Həmin siyasi liderlər kimi müəlliflər D.Trampı, V.Putini, S.Szinpini, E.Makronu, A.Merkeli və R.T.Ərdoğanı göstərirlər. Bu liderlərin hər birinin dünya siyasətində rolu fərqlidir, lakin onların təsiri yekun halında daha çoxdur. Qısa deyilsə, məhz həmin siyasi liderlər hazırda dünya siyasətinin gündəmini, formasını, məzmununu və ümumi mənzərəsini müəyyənləşdirirlər. Və burada əsas əlamətlərdən biri regionallaşmadır.

Burada başlıca məqamlardan biri milli elitaların regional şəbəkə yaratmağa çalışmasından ibarətdir. Nəticədə, dünyada sosial-siyasi əlamətlərə görə makroregionlar formalaşmağa başlayır. Bunu qloballaşmanın əsas siyasi nəticəsinin regionallaşma olduğu adlandırmaq olar. Həmin prosesi Avropada, Yaxın Şərqdə, Cənubi Amerikada və hətta Uzaq Şərqdə müşahidə etmək olar. Bu kontekstdə ABŞ-ı da makroregion kimi qəbul etsək, Vaşinqtonun yeni siyasətini "qlobal lider rolundan regionun aparıcısı roluna keçid cəhdi" kimi qiymətləndirmək olar (bax: əvvəlki mənbəyə).

Bu tip regionallaşmada Avropanın rolu müsbət qiymətləndirilmir. Avropanın "siyasi pozası qlobal baş keşiş" (K.Stoyçev, A.Raytsev) pozasıdır. Ona "maniakal-depressiv psixoz" diaqnozunu qoymaq olar (bax: əvvəlki mənbəyə). Avropanın bu halı özünü dünya üçün əsas və əvəzedilməz model hesab etməsi ilə bağlıdır. Bunun əsasında da digər regionlara "keşiş məsləhətləri" verməkdən zövq alır. Lakin elə bu məqamda özünü aldadır.

Avropanın müsbət olmayan "məsləhətçiliyi" özünü son illər Yaxın Şərqdə daha çox göstərib. "Ərəb baharı" avropalıların o dərəcədə xoşuna gəldi ki, Yaxın Şərqdə bir neçə dövlət dağıldı, regionu terror, xaos, silahlı qarşıdurmalar bürüdü. Bu prosesin bundan sonra neçə nəsli əhatə edəcəyi isə hələ də qaranlıqdır.

Doğrudan da, bu geosiyasi bucaq altında Yaxın Şərqdəki proseslərə nəzər saldıqda, çoxlu sayda təhlükəli tendensiyaların mövcudluğunu görə bilirik. İndi böyük güclər həmin regionda yeni oyuna başlayıblar. Onlar bir tərəfdən müəyyən terror qruplarını yox etməyə çalışır, digər yandan onların əvəzinə yenilərini yaratmaq üzərində işləyir və nəhayət, üçüncü tərəfdən regionun gələcək siyasi mənzərəsini formalaşdırmağa cəhd edirlər. Bütün bu məqsədlərin fonunda isə bir-biri ilə gərgin münasibətlərə gedirlər.

## Böyük savaş: Yaxın Şərq sindromu

Bəzən daha qəribə hadisələr baş verir. Məsələn, Yunanıstandakı son meşə yanğınlarında bir sıra yunan KİV-ləri Amerikanı günahlandırır. Onlar yazırlar ki, Vaşinqton türklərlə yunanların arasını vuraraq Rusiyanı günahkar göstərməyə çalışır. Axı Rusiya ilə Yunanıstan arasında diplomatik böhran yaranıb. Bununla ABŞ NATO-nun cənub cinahında özünə bağlı ölkə yaratmaq iddiasındadır.

Bunun nə dərəcədə doğru olduğunu demək çətindir, lakin artıq ictimai şüurda Yaxın Şərqdə böyük dövlətlərin amansız mübarizə apardığı və bu istiqamətdə onların heç nədən çəkinmək fikrində olmadıqları faktoru mövcuddur. Bu da səbəbsiz deyil. Çünki Yaxın Şərqdə həmin güclər çoxlu sayda amansız addımlar atıb, öz maraqlarını təmin etmək üçün milyonlarla insanın faciə yaşamasına göz yumublar. Bu proses davam edir.

Hazırda mübarizə bütün Yaxın Şərq ölkələrini əhatə edir və üstəlik, tədricən İran faktorunu da buna bağlayırlar. Regionun ərəb ölkələri ilə İsrail arasında ziddiyyət Qüds məsələsinə görə yeni səviyyəyə yüksəlib. Vaşinqtonun təhrikedici davranışı vəziyyəti daha da gərginləşdirib. İndi faktiki olaraq İsraillə müsəlman dünyası üz-üzə dayanıb. Təl-Əviv bir addım da olsun geri çəkilmək fikrində deyil. Müsəlmanların isə öz dini dəyərləri uğrunda sona qədər mübarizə aparacağı şübhə doğurmur. Bu ziddiyyət prizmasından Suriya məsələsinə baxsaq, meydana yeni terror qruplarının çıxması ehtimalının az olmadığı qənaətinə gələ bilərik.

Digər gərginlik xətti Suriyanın daxilində nüfuz sahibi olmaq uğrunda böyük güclərin apardığı mübarizənin daha da intensivləşməsi ilə bağlıdır. ABŞ Rusiya-Türkiyə-İran müttəfiqliyini zəifltməyə cəhd edir. İran öz mövqelərini qorumaq üçün çılğın addımlar atır. Rusiya və Türkiyə isə böyük dövlətlərə xas təmkin və sistemliliklə öz xətlərini yeridirlər. Vəziyyət o dərəcədə mürəkkəbləşib ki, böyük güclər yunanları da prosesə qatmağa başlayıblar.

İsrail və ABŞ Kiprin yunan kəsimi ilə dənizdə enerji axtarışları məsələsini yenidən qabardıblar. Buna hətta Misir də qoşulub. Bu qrup son olaraq bəyan edib ki, adanın yunanlar olan hissəsində enerji axtarışları davam edəcək və buna mane olmaq istəyənlərə hətta əsgəri müdaxilə ola bilər. Türkiyə XİN dərhal bəyanat verərək "bəzi ölkələrin səfirlərinin həddini aşdığı və bunu məsləhət görmədiyini" ifadə edib.

Bununla Türkiyə ətrafında yeni gərginlik mənbələri yaradılmasına çalışıldığı hiss edilir. Bunlar Kipr və Yunanıstandır. Birində enerji axtarır, digərində təbii fəlakət törədib, Ankaranı günahlandırmağa cəhd göstərirlər. Deməli, Yaxın Şərq məsələsi getdikcə daha geniş miqyasda geosiyasi toqquşmalar meydanına çevrilməkdədir.

Problemin digər aspekti İranla bağlıdır. Amerika və İsrail İrana qarşı daha sərt mövqe nümayiş etdirirlər. D.Tramp Tehranı hətta hərbə-zərbə ilə hədələyib. Tehran da eyni tonla ona cavab verib. Bu bağlılıqda Yəməndə husilərə qarşı hərbi əməliyyatların keçirilməsi də diqqəti çəkir. Son olaraq çoxlu sayda husinin öldürüldüyü haqqında informasiyalar yayıldı. Konkret Suriyaya gəldikdə isə ABŞ İran qüvvələrinin oradan çıxarılmasında israr edir. Tramp-Putin müzakirələrində bu məsələ də masanın üzərində olub.

Təbii ki, Tehran bu şərtləri qəbul etmir və mövqeyini daha da möhkəmlətməyi düşünür. Bununla Suriyada real hərbi toqquşmalar ehtimalı artmış kimi görünür. Bunlara Türkiyənin İrana münasibəti də əlavə olunub. Ankara İrana qarşı sanksiyalara qoşulmayacağını açıq bəyan etdi. Bu o deməkdir ki, ABŞ Türkiyəyə qarşı da sanksiyalar tətbiq edə bilər. R.T.Ərdoğan bunu veclərinə almadıqlarını ifadə edib.

Bütün bunlardan Yaxın Şərqdə geosiyasi regionallaşma prosesinin sürətlə getdiyi və onun böyük dövlətlər arasında ziddiyyətlərin daha da artmasına səbəb olduğu qənaətinə gələ bilərik. Faktiki olaraq bu region hər an partlaya biləcək barıt çəlləyini xatırladır. İndi mütəxəssislər onun ətraf regionlara mümkün təsirlərini proqnozlaşdırmağa çalışırlar. Ola bilsin ki, Yaxın Şərq bütövlükdə qlobal geosiyasətdəki regionallaşmanın sonunu gətirsin. Bu halda bəşəriyyəti nələrin gözlədiyi də aydın deyil. Çünki supergüclərin liderlik hərisliyi yüksək həddə çatıb. Belə təssürat yaranır ki, hər an böyük savaş meydana gələ bilər. O, bəşəriyyəti məhv etmək gücündədir!

**Newtimes.az**

# Xarici investorların Azərbaycana olan inam və marağı daha da artır



***Məlumdur ki, siyasətdəki qeyri-müəyyənlik, xaos hər zaman iqtisadiyyata da mənfi təsir göstərir. Xüsusilə, siyasi mübarizənin hədəfi iqtisadi maraqlar olduqda, vəziyyət daha kəskin xarakter alır. Bu gün dünyada gedən ticarət mübarizəsinin nə ilə nəticələnəcəyi barədə mütəxəssislər dəqiq fikir bildirməyə çətinlik çəkirlər. Bu isə, kapital qoyuluşunda da bir durğunluq yaradır. Bütün bunların fonunda isə Azərbaycanda həyata keçirilən islahatlar xarici investorlarda bizə olan inamı və marağı azaltmır. Çünki Azərbaycanda xarici sərmayənin qorunması üçün mükəmməl qanunvericilik bazası yaradılıb, biznesin inkişafı üçün əlverişli mühit formalaşıb. Azərbaycan Prezidenti İlham Əliyev ölkəyə kapital qoyuluşunun əhəmiyyətini vurğulayaraq deyib ki, ölkəmizə 230 milyard dollardan çox sərmayə qoyulub.***

Ölkəmizdə çox gözəl investisiya iqlimi vardır. Xarici və yerli sərmayə ölkəmizə bundan sonra da qoyulacaqdır: "Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı rəqabətqabiliyyətliliyinə görə 35-ci yerə layiq görübdür. İnkişafda olan ölkələr arasında inklüziv inkişaf indeksinə görə biz üçüncü yerdəyik. Yəni bu göstəricilər özlüyündə hər şeyi açıq-aydın bildirir, onu göstərir ki, iqtisadi sahədə əldə edilmiş uğurlar, nailiyyətlər tarixi nailiyyətlərdir... Biz son illərdə ölkə daxilində nəqliyyat infrastrukturu ilə çox ciddi məşğul olmuşuq. Demək olar ki, nəqliyyat infrastrukturuna çox böyük investisiya qoyulubdur. Biz yeddi aeroport tikmişik, onlardan altısı beynəlxalq statusa malikdir. O aeroportlar indi işləyir, xaricdən gələn turistlərin sayı artır. Ələtdə Xəzər dənizində ən böyük yeni ticarət limanı tikilir, yaxın gələcəkdə istifadəyə veriləcəkdir. Dəmir yolu infrastrukturu yenilənir. Azərbaycan Xəzər dənizində ən böyük donanmaya malikdir. Burada da biz liderliyi möhkəmləndiririk. Gəmiqayırma zavodunun tikintisi artıq xaricdən gəmilərin alınmasına ehtiyac qalmadığını göstərir".

Son dövrlər sənaye parklarının və sənaye zonalarının yaradılmasına da külli miqdarda investisiya yatırılır. Təkcə keçən ilin sonunda Sumqayıt Kimya Sənaye Parkında 4 müəssisənin açılışı olub və 3 müəssisənin təməli qoyulub. Bu zavodların tikintisinə, ümumilikdə, 2 milyard dollara yaxın vəsait yatırılıb. Qoyulacaq ümumi investisiyanın həcmi 2,8 milyard dollar olacaq. Bu qədər xarici və yerli sərmayənin təkcə bir sənaye parkına cəlb edilməsi investisiya təşviqi siyasətinin həyata keçirilməsi nəticəsidir. Təsadüfi deyildir ki, cari ilin yanvar-mart aylarında xarici müəssisə və təşkilatlar tərəfindən əsas kapitala 1 milyard 386,5 milyon manat vəsait yönəldilib. Xarici ölkə və beynəlxalq təşkilatların vəsaitləri hesabına əsas kapitala yönəldilən vəsaitin 1 milyard 139,6 milyon manatı Birləşmiş Krallıq, Türkiyə, İsveçrə, Malayziya, Çexiya, Yaponiya, ABŞ, Rusiya və İran sərmayədarlarına məxsusdur.

2018-ci ilin ilk 3 ayında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 2 milyard 869,2 milyon manat vəsait yönəldilib. İstifadə olunan vəsaitin çox hissəsi istehsal obyektlərinin, qalanı xidmət obyektlərinin və yaşayış evlərinin tikintisinə sərf edilib.

Ümumilikdə daxili mənbələrdən əsas kapitala yatırılan vəsaitin dəyəri ümumi sərmayənin 51,7 faizini təşkil edir. Əsas kapitala yönəldilən sərmayədə müəssisə və təşkilatların vəsaitləri 1 milyard 732,2 milyon, bank kreditləri 392 milyon, büdcə vəsaitləri 556,9 milyon, büdcədənkənar fondların vəsaitləri 17 milyon, əhalinin şəxsi vəsaitləri 156,3 milyon, digər vəsaitlər 14,8 milyon manatdır. Bütün bu vəsaitlər hesabına yanvar-mart aylarında paytaxtda "Yasamal-1", "Qobu" və 120 saylı elektrik yarımstansiyaları, Bakı Şəhər Statistika İdarəsinin inzibati binası, "Bona Dea" Beynəlxalq Hospitalı, Mingəçevir Sənaye Parkında iplik istehsalı üzrə 2 müəssisə, Neftçala Sənaye Məhəlləsində "Xəzər" Avtomobil Zavodu, Naxçıvan Muxtar Respublikasında 442 şagirdlik 2 ümumtəhsil məktəb binası və ambulatoriya-poliklinika istifadəyə verilib. Bu müəssisələrin təsnifatından aydın görünür ki, istehsal, infrastruktur və sosial obyektlərin tikintisi paralel həyata keçirilir. Dövlətin həyata keçirdiyi iqtisadi siyasətin əsas məqsədi də budur. Bir sıra sosial layihələrin həyata keçirilməsində dövlət vəsaitindən də istifadə edilir. Cari ildə məcburi köçkünlər üçün ən azı 4 min ailə - 20 min köçkünün yeni evlərə, mənzillərə köçürülməsi nəzərdə tutulub. Xatırladaq ki, ötən il 12 min köçkün ailəsi mənzillə təmin edilib. İlin sonuna kimi isə onların ümumi sayı 285-290 min nəfərə çatacaq.

Bir sözlə, bu gün dünyada geosiyasi proseslərin nəticəsi olaraq, ortaya çıxan sosial-iqtisadi çətinliklərin, xaosun fonunda Azərbaycan sabit və dinamik şəkildə inkişaf edir və uğurlarını davam etdirir.

***"Səs" Analitik Qrupu***

## Bakı rusiyalı turistin gözləri ilə: Qeyri-adi memarlığı ilə seçilən çox gözəl və isti şəhər

Rusiyalı turistlər Azərbaycana səfər edib və səyahətlərinin nəticəsi kimi "Tur bez kupyur" bloqunda öz təəssüratlarını bölüşüblər. AZƏRTAC xəbər verir ki, Bakı haqqında 21 dəqiqəlik videoçarxda qonaqlar Şirvanşahlar sarayı, küləkli havada Xəzər dənizində istirahət barədə danışıblar. Həmçinin Bakının ən maraqlı və gəzməli yerləri - Heydər Əliyev Mərkəzi, İçərişəhər, Qız qalası qonaqların yaddaşında xoş iz buraxıb. Videoçarxda bloqer ümumilikdə Azərbaycanın paytaxtı barədə fikirləri ilə bölüşür.

## Mənəvi Dəyərlərin Təbliği Fondunun loqosu müəyyənləşib

Mənəvi Dəyərlərin Təbliği Fondu tərəfindən elan olunmuş loqo müsabiqəsinin qalibinin müəyyənləşdirilməsi məqsədilə yaradılmış komissiyanın iclası keçirilib. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda loqo nümunələri komissiya üzvlərinə təqdim edilib və müzakirələr aparılıb. Təqdim edilən nümunələr elan edilən parametrlər üzrə qiymətləndirilib və Nicat Qəribovun təqdim etdiyi nümunə müsabiqənin qalibi seçilib. Loqoda multikulturalizmi və tolerantlığı əks etdirən, o cümlədən 8 guşəni formalaşdıran insan formasında simvollar birlik və həmrəylik kimi dəyərləri ifadə edir. Loqonun tam mərkəzində dövlətçiliyimizin rəmzlərindən olan 8 guşəli ulduz və ulduzun mərkəzində alov şəkli yer alıb. Qalxana bənzədilmiş dairə formasındakı simvollar isə milli-mənəvi dəyərlərimizin qorunması və təbliği mənasına gəlir.

MƏNƏVİ DƏYƏRLƏRİN
TƏBLİĞİ FONDU

# "Paşinyan bilərəkdən və bilməyərəkdən Rusiyaya arxadan xəncər vurdu"

***"Nikol Paşinyan KTMT-nın imicinə ciddi zərbə vurdu. KTMT ABŞ və NATO-ya qarşı mübarizəyə son bir ildə RF tərəfindən ciddi şəkildə qoşulmuşdu. ABŞ-ın və NATO-nun Suriya, Qara dəniz akvatoriyası və digər sahələrdəki siyasətinə qarşı KTMT kəskin bəyanatlar verirdi". Bunu açıqlamasında politoloq Mübariz Əhmədoğlu bildirib.***



Onun sözlərinə görə, N.Paşinyan KTMT baş katibi, Ermənistanın təmsilçisi olan Y.Xaçaturova qarşı cinayət işi açdı: "Moskvanın etirazlarına baxmayaraq, onun həbs olunması barədə qərar çıxardı, bir neçə saatdan sonra 10 min dollar məbləğində girov müqabilində azadlığa buraxıldı. KTMT baş katibi Y.Xaçaturv 2008-ci ilin 1 mart qırğınları zamanı Yerevan qarnizonunun rəisi olmuşdu. RF Y.Xaçaturovun istintaqa çağırılması ərəfəsində xeyli aktivləşdi. RF Xİ nazirinin müavini Q.Karasin KTMT baş katibi ətrafındakı vəziyyəti ciddi izlədiklərini bildirdi. S.Lavrov ermənistanlı həmkarı Z.Mnasakanyana zəng edərək, bu məsələni telefonla müzakirə etdi. Az sonra RF-nin mövqeyi tam təfsilatı ilə bəlli oldu. RF Y.Xaçaturova qarşı cinayət işinin başlanmasının əleyhinə deyil, amma Y.Xaçaturov istintaqa çağırılana qədər Ermənistan tərəfi Y.Xaçaturovu KTMT baş katibi postundan geri çağırmalıdır. Başqa sözlə, erməni və ya qeyri-erməni olmasından asılı olmayaraq, KTMT baş katibi istintaqa cəlb olunmamalıdır. Ermənistan tərəfi bunu etmədi. İstintaq prosesi ilə Y.Xaçaturovun həbs olunması arasında baş verən proseslər Z.Mnasakanyanın Lavrovun zəngini N.Paşinyana çatdırmaq gücündə olmadığını deməyə əsas verir. Amma N.Paşinyan Y.Xaçaturovun həbsini yubatmadı, həbs etdirib, girov müqabilində azadlığa buraxdırdı. Səhəri gün Ermənistan XİN KTMT baş katibinin dəyişdirilməsi (geri çağırılması deyil, məhz dəyişdirilməsi) prosedurasına başladı. RF XİN buna qarşı bəyanat verdi. RF XİN-dəki mənbə Ermənistan XİN-i qeyri-peşəkarlıqdaittiham etdi. RF ilə körpüləri yandırdığını başa düşən N.Paşinyan Belarus prezidenti A.Lukaşenko ilə vəziyyəti telefonla müzakirə etdi. Təxminən həmin vaxtda S.Lavrov Belarus Xİ naziri ilə KTMT baş katibi məsələsini müzakirə etmişdi. S.Lavrovun davranışı RF XİN-in Ermənistan XİN-ni qeyri-peşəkar adlandırması Rusiyanın Ermənistana qarşı hirsli olduğunu göstərir. RF mətbuatında Y.Xaçaturovla bağlı vəziyyət Ermənistanın NATO-ya tərəf dreyfi kimi qiymətləndirildi. Əsas Y.Stoltenberqin NATO baş katibi olduğu dövrdə "Norveçdə cinayət işinin açılması qeyri-mümkündür" tezisidir.

M.Əhmədoğlunun sözlərinə görə, RF Xİ naziri S.Lavrov Ermənistanda baş verənlərə Rusiyanın adından narahatlıq bildirdi: "Bu, təkcə KTMT-nin adının ləkələnməsilə bağlı deyil. N.Paşinyan bilərəkdən və bilməyərəkdən Rusiyaya arxadan xəncər vurdu".

**İ.ƏLİYEV**



# *Paşinyan hakimiyyəti çökür*

**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

Faktlar ortadadır, Ermənistanda yaşayan insanlar hakimiyyətə qarşı mübarizədə ixtisaslaşıblar. İndi cəmiyyət istənilən hakimiyyəti devirmək gücündədir və bu, baş nazir Nikol Paşinyanın qiyamçı komandası üçün təhlükəlidir. Baş qaldıran etirazlar fonunda, belə təəssürat yaranıb ki, yeni hakimiyyət piramidası da artıq çökməyə başlayıb. Bu barədə Ermənistanda nəşr olunan "İrates" qəzeti yazır. Qəzet qeyd edir ki, çatlar Paşinyanın komandasının həm daxili, həm də xarici siyasətində nəzərə çarpır: "Bu çat, ilk növbədə, xarici siyasətdə daha güclüdür. Məsələn, Moskva və İrəvan arasında gedən hibrid müharibə yaxın gələckdə Ermənistan və Rusiyanı üz-üzə qoya bilər. ABŞ, yaxud Qərb istiqamətində də vəziyyət ürəkaçan deyil. Hakimiyyət səviyyəsində ABŞ və Kanadaya edilən turlar nəticə vermədi. Düzdür, Qərb Paşinyana dəstəyini ifadə edir. Lakin bu, Ermənistana investisiya qazandırmır. Üstəgəl, Avropa İttifaqı Ermənistan üçün ayırdığı maliyyə yardımını ("Svitalski paketi") geri çəkmək istəyir. Ermənistan beynəlxalq güclərin maraq mərkəzindədir. Bəs Ermənistan yeni və daha maraqlı ssenarilərə hazırdırmı?" "İrates" iddia edir ki, Paşinyanın şübhəli ritorikası onun özünü dolaşıq vəziyyətə salıb və o, təkbaşına oynamaq qərarına gəlib: "Digər tərəfdən, Paşinyanın daxili siyasi qüvvələrlə və media ilə də problemləri var. Paşinyana qarşı böyük mübarizə artıq başlayıb. Bu mübarizənin mərkəzində dayananlardan biri Daniyel İonnasiyandır, qalanları da xalça altındadır. Hər halda, baş verənlər Paşinyan üçün xoşagələn deyil". Bu və bu kimi amillər də təsdiq edir ki, erməni baş nazirin oyunbazlıqlarıona heç də səmərə verməyəcək. Hər halda, mövcud vəiyyət də bu gerçəkliyi sübut etməkdədir.

# "Rusiya Yuri Xaçaturovun cinayət məsuliyyətinə cəlb olunmasını KTMT-nin nüfuzuna dəyən "nəhəng zərbə" kimi qiymətləndirir"

Rusiya Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Yuri Xaçaturovun cinayət məsuliyyətinə cəlb olunmasını KTMT-nin nüfuzuna dəyən "nəhəng zərbə" kimi qiymətləndirir. Rusiya prezidentinin administrasiyasından mətbuata sızdırılan məlumata görə, Moskvanı sabiq prezident Robert Köçaryanın həbsindən daha çox KTMT-nin baş katibinin cinayət məsuliyyətinə cəlb edilərək həbs olunması, daha sonra isə girovla azadlığa buraxılması qıcıqlandırıb və Kreml baş verənlərə sərt reaksiya verməyə niyyətindədir. Doğrudur, Rusiyanın xarici işlər naziri Sergey Lavrov Ermənistan rəhbərliyinin ünvanına yumşaq da olsa müəyyən iradlar səsləndirib. Bəzi ekspertlər Sergey Lavrovun yumşaq xəbərdarlığının



onun Ermənistanın hakimiyyətə küçədən gələn baş naziri ilə bağlı daha əvvəlki mövqeyindən qaynaqlandığını bildirirlər. Belə yanaşmalarda qeyd olunur ki, Ermənistanda baş verən hadisələrdən sonra Sergey Lavrov Nikol Paşinyanla işləməyin mümkünlüyü barədə ehtimallarını irəli sürüb və yeni baş nazirlə danışıqların aparılması təşəbbüsü ilə çıxış edib.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi ekspert Elçin Mirzəbəyli bildirib. Onun sözlərinə görə, Paşinyanın son addımları bu təşəbbüslərin özünü doğrultmadığını və Moskvanın Ermənistandakı maraqlarını zərbə altında qoyduğunu sübuta yetirib. Sergey Lavrovun son bəyanatının nisbətən yumşaq notlarla, bir az da incik xarakterli olması onun daha əvvəlki mövqeyi ilə mövcud reallıqdan irəli gələn situasiyaya sərt keçid edə bilməməsi ilə əlaqələndirilir. Buna baxmayaraq, Lavrovun bəyanatından sonra həm Rusiya ekspertləri, həm də bu ölkənin kütləvi informasiya vasitələri kifayət qədər fəallaşıblar. Ekspert qeyd edib ki, son günlər Nikol Paşinyanın və onu dəstəkləyənlərin ünvanına səslənən ittihamların sayı və sərtlik dərəcəsi kifayət qədər artıb. Xaçaturovun girov qarşılığında azadlığa buraxılması da, çox güman ki, Nikol Paşinyanın vəziyyətinin kritik həddə çatdırmaqdan çəkinməsi ilə bağlıdır. Ermənistanın baş nazirinin həyəcanlı şəkildə əhalini avqustun 17-nə təyin edilmiş mitinqə dəvət etməsi və onlardan israrla, az qala yalvararaq dəstək istəməsi də onun Moskvanın açıq xəbərdarlığından narahat olması ilə əlaqəlidir. Ermənistan mətbuatında, xüsusilə də yeni hökumətə yaxın kütləvi informasiya vasitələrində Nikolun mitinqə çağırışını Sergey Lavrovun bəyanatına cavab, hətta Rusiyaya müharibə elan edilməsi kimi təqdim edildiyini deyən Elçin Mirzəbəyli deyib: "Bunun nə dərəcədə real olduğunu söyləmək çətin olsa da, Nikol Paşinyanın Rusiyanın maraqlarına qarşı siyasət yürütdüyü göz önündədir. Rusiyanın bəzi dairələrinin Paşinyanı "kökə" ilə əməkdaşlığa cəlb etmələri, müxtəlif təxribatlarla ümidləndirmələri, tələm-tələsik kreditlə ayırdıqları silah sursat və hərbi texnikanı Ermənistana göndərmələri effektiv nəticə verməyib. Əgər Moskvada rəsmi İrəvanın Rusiyanın təsir dairəsindən çıxmağa çalışdığını anlayıblarsa, o zaman avqustun 17-də Paşinyanın arzuladığı nəticəni görməyəcəyini söyləyə bilərik.

Hələlik isə Kreml Paşinyana ən yaxşı halda nələrin baş verəcəyini xatırladır. Məsələn, "Komersant" qəzetinin Rusiya prezidenti administrasiyasındakı mənbəyə istinadən yaydığı məlumata görə, Ermənistan Rusiyanın ayırdığı ikinci kreditin hissəsini - "İskander - E" raketləri və "SU-30SM" qırıcılarının alınması üçün nəzərdə tutulmuş 100 milyon dolları almaya bilər".

Siyasi ekspert qeyd edib ki, Moskvada Paşinyanın atdığı addımların Rusiyaya qarşı siyasi gediş olmadığını, onun qisasçılıq hisslərindən qaynaqlandığını iddia edənlər də var. Bu qəbildən olan təhlillərdə, Paşinyanın 2008-ci ilin mart ayında baş verən hadisələrdən sonra məhz Robert Köçaryanın göstərişi ilə həbs olunduğunu xatırladırlar. Yuri Xaçaturovun da həmin dövrdə İrəvan qarnizonuna rəhbəri olduğu və Paşinyanın həbsində bilavasitə iştirak etdiyi bildirilir.

Paşinyanın son davranışlarına ən sərt münasibəti isə politoloq Aleksandr Duqinin sərgilədiyini vurğulayan Elçin Mirzəbəyli əlavə edib ki, A.Duqinin qənaətinə görə, Rusiyanın, sadəcə erməni dövlətçiliyinə qarant olmadığını söyləməsi yetərlidir ki, vəziyyət proqnozlaşdırılması mümkün olmayan həddə çatsın. Əgər biz yalnız bir anlıq, bir saniyəlik KTMT və Avrasiya İqtisadi İttifaqı üzrə müttəfiqlərimizin müdafiəsini unutsaq, düşünürəm ki, Dağlıq Qarabağın taleyi üçün də sayılı günlər qalacaq".

E.Mirzəbəyli deyib: "Göründüyü kimi, Duqin kifayət qədər sərt və açıq mesajlar verir. Bu mesajların rəsmi Moskvanın açıqlanmayan mövqeyini nə qədər ifadə etdiyini söyləmək çətin olsa da, Rusiyanın siyasi elitasında belə bir yanaşmanın formalaşdığını yəqinliklə söyləmək olar. Hələliksə diqqət Nikol Paşinyanın Sergey Lavrovun bəyanatından bir neçə saat sonra sosial şəbəkələr vasitəsi ilə Ermənistan vətəndaşlarını mitinqə çağırması faktına və avqustun 17-də keçirilməsi nəzərdə tutulan aksiyanın daşıdığı siyasi yükə yönəlib. Paşinyan Lavrova mitinqdə cavab vermək istəyir. Ermənistan mediası da bu ehtimalı təsdiqləyir. Məqsəd isə Lavrova Ermənistanın siyasi hakimiyyətinin deyil, guya erməni xalqının cavab verdiyini təmin etməkdir. Bu isə Nikolun bir hökumət başçısı kimi siyasi məsuliyyətdən və idarəçilikdən anlayışının olmadığını, ziddiyyətləri və fikir ayrılıqlarını Rusiya-erməni xalqı müstəvisinə çəkmək istədiyini təsdiqləyir. Paşinyan hədəf olaraq onu küçələrdən hakimiyyətə gətirən xalqı göstərir. Bu isə çox güman ki, ilk növbədə, onun özünə baha başa gələcək".

# Azərbaycanda fərdi təhsil üzrə nümunəvi tədris planı təsdiqlənib



Təhsil naziri Ceyhun Bayramov fərdi təhsil üzrə nümunəvi tədris planının təsdiqi barədə əmr imzalayıb. AZƏRTAC xəbər verir ki, əmrin imzalanmasında məqsəd uzun müddət təhsildən kənarda qalmış şəxslərin fərdi təhsilinin təşkili və tənzimlənməsini təmin etməkdir. Əmrə əsasən, uzun müddət təhsildən kənarda qalmış şəxslərin ümumtəhsil məktəblərində təşkil olunan fərdi təhsilinə aid 2018-2019-cu dərs ili üçün tədris planı və tədris planına dair "Qeydlər" təsdiq edilməlidir. Əmrin icrasına nəzarət nazir müavini Məhəbbət Vəliyevaya həvalə olunub.

# YAP Cəbrayıl rayon təşkilatının yaranmasının 25 illiyi qeyd olunub

Dünən Yeni Azərbaycan Partiyasının Cəbrayıl rayon təşkilatının yaranmasının 25 illiyi ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə açan YAP Cəbrayıl rayon təşkilatının sədri Arif Fərzəliyev Azərbaycan dövlətçiliyinin inkişafında partiyamızın xidmətlərindən geniş danışıb. Tədbirdə YAP İcra katibinin müavini, millət vəkili Siyavuş Novruzov, YAP Siyasi Şurasının üzvü Şahlar Əsgərov, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin birinci müavini Səyyad Aran və başqaları çıxış edərək, partiyanın keçdiyi şərəfli yoldan bəhs ediblər. Bildiriblər ki, Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla inkişaf edir, tarixinə biri-birindən zəngin səhifələr yazır, yeni-yeni hədəflərə çatmaq üçün səylər göstərir.

Tədbirdə qeyd olunub ki, 3252 nəfər partiya üzvünü birləşdirən 44 ilk təşkilatı əqidə birliyini, dövlətə ləyaqətlə xidmət etməyi partiyanın 25 illik yubleyinə başlıca töhfə hesab edir.

Həmçinin, tədbirdə YAP fəalları



Fəxrəddin Rüstəmov, Əbil Vəliyev, Əsəd Əsədov, Arif Zamanov və digərləri çıxış edərək, Azərbaycan siyasi mühitinin ən güclü, monolit və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun cəmiyyətin bütün sosial-ictimai maraqlarının ifadəçisi olmasını vurğulayıblar.

Tədbirin sonunda bir qrup partiya üzvü rayon təşkilatının fəaliyyətində və rayonun ictimai-siyasi həyatında göstərdikləri fəallığa görə "Fəxri Fərman"larla mükafatlandırılıb.

**R.KAMALQIZI**

# Narkotik vasitələrin ölkə ərazisinə qanunsuz gətirilməsinin qarşısı alınıb



Dövlət Sərhəd Xidmətini Mətbuat Mərkəzinin məlumatına görə, Dövlət Sərhəd Xidməti tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə qanunsuz gətirilməsinin qarşısının alınması istiqamətində tədbirlər davam etdirlir.

1 avqust 2018-ci il tarixdə Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları tərəfindən İran İslam Respublikasından ölkə ərazisinə qaçaqmal yolu ilə narkotik vasitələrin və psixotrop maddələrin gətirilməsi cəhdinin qarşısı alınıbdır. Hadisə DSX sərhəd qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Biləsuvar rayonu ərazisindəki sərhəd zastavasının xidməti sahəsində baş verib. Həmin gün saat 22:00 radələrində İİR ərazisindən 3 nəfər şəxsin sürünərək, Azərbaycan Respublikasının ərazisinə doğru hərəkət etməsi sərhəd naryadı tərəfindən müşahidə olunmuş və nəzarətə götürülmüşdür.

Dövlət sərhədini pozduqdan sonra sərhədçilər tərəfindən aşkarlandıqlarını başa düşən sərhəd pozucuları geri qaçmağa başlamış, sərhəd naryadının xəbərdarlıq atəşinə baxmayaraq, havanın qaranlıq olmasından və ərazinin relyef xüsusiyyətlərindən istifadə edərək, İran İslam Respublikasının ərazisinə keçiblər. Hadisə yerinə baxış zamanı 1 ədəd bel çantasının içərisində 6,4 kq narkotik vasitəyə oxşar maddə, hər birində 10 həb olmaqla 79 ədəd konvalüt "Tedol-200", 100 ədəd 10 milliqramlıq flakonda "MYDRAX" psixotrop tərkibli dərman preparatları aşkar olunubdur.

Fakt üzrə Dövlət Sərhəd Xidmətinin istintaq və təhqiqat idarəsi tərəfindən cinayət işi başlanılıbdır.

**RƏFİQƏ**



## Məzhəbibilinməz "lider"lər

**RƏFİQƏ**

***İndi müxalifət düşərgəsində anlamaz "lider"lər var ki, bilmirlər nə etsinlər. Elə, belə də olmalı idi. İndi yerindən duran özünü "lider" sayır. Ancaq düşərgə "liderləri", ən vacibi isə, Cəmil Həsənli ilə Gültəkin Hacıbəyli belə "liderliyi" qəbul etmir. Deyirlər "lider" satan və satılan olmalı, özləri də bir-birilərinə oxşamalıdırlar. Necə ki, Cəmillə Gültəkin kimi. Cəmil, ya da Gültəkin... Onların birinin soyadı Həsənli, digərinkinin isə Hacıbəyli olsa da, yolları birdir, hər ikisi satqın yolun yolçularıdır.***

Bir də ya Həsən keçəl, ya da keçəl Həsən?! Hər ikisi azərbaycanlı adları və soyadlarını daşısalar belə, real azərbaycanlı olmaq dəyəri onlardan qat-qat uzaqdadır. Əqidəsizlik, satqınçılıq, ikiüzlülük, xəyanət, paxıllıq, xəbislik, şantajçılıq və pul hərisliyi bunların əsas amalıdır. Bütün bunlar hazırda onlara öz xeyri, mənfəəti naminə qucaq açmış AXCP sədri Ə.Kərimlidə də var. Üstəlik, lap çox miqdarda. Yəni C.Həsənli, G.Hacıbəyli nə qədər satqın, ikiüzlü, əqidəsiz, xəyanətkar, paxıl, şantajçı, pul hərisi olsalar da Ə.Kərimlidən artıq ola bilməzlər. Amma fakt budur ki, su axıb, çuxurunu tapıb. "Lider" olmaq üçün Ə.Kərimli kimi satılan, satan, əqidəsiz vətən xaini olasan. Necə ki, Cəmil və Gültəkin cütlüyü bir araya gələrək, AXCP və "Milli Şura" adlı çuxura axıb, kirli, üfunətli və mamır basmış gölməçədə birləşiblər.

Vaxtilə də "Azadlıq" bunların ruporları olaraq, hakimiyyətə qarşı Ə.Kərimlinin qara zurna havası ilə halleyşıdırğı gedirdilər. Daha abıra-zada qısılıb, vicdana gəlib demirdilər ki, əşşi, axı bir neçə il öncə, biz bu hakimiyyəti tərifləyir, seçkilərdə dəstəkləyir, özümüz də deputat-filan seçilirdik. İndi bizdə bir balaca da vicdan qalmayıb və indinin özündə xalqın dəstək verdiyi hakimiyyətə və dövlətə arxa çevirib, Ə.Kərimli kimi "malçişka"nın "otur-dur" komandasını icra edirik. Bax, abıra-zada qısılmayan Vətənə, millətə, xalqa sədaqətini itirən, ikiüzlü Cəmil-Gültəkin kimi"lider" olmaq lazımdır. Kül olub o müxalifətin başına ki, onun "lideri" C.Həsənli adlı mal oğrusudur. İki dəfə öz çörəkqabına tüpürüb, sonradan həmin qabdan çörək götürüb yeyən C.Həsənli! Ona görə də, bu anlamaz "liderdən" daha geniş yazmaq fikrim yoxdur... Bir də bu anormal "liderlər" hansı yuvanın quşlarıdır ki, onlardan da uzun-uzadı yazım...

# Bakcell və "PwC Azərbaycan"ın birgə layihəsindən 100 uşaq bəhrələnib

Azərbaycanın İlk Mobil Operatoru və Aparıcı Mobil İnternet Provayderi Bakcell şirkətinin "Azərbaycana Birgə Yardım" (UAFA) təşkilatı ilə birgə həyata keçirdiyi növbəti "İncəsənət vasitəsilə ünsiyyət" layihəsi başa çatıb.

Özünün "Bakcell Stars" Korporativ Sosial Məsuliyyət (KSM) proqramı çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün bərabər hüquq və imkanların təmin edilməsi, onların asudə vaxtının səmərəli təşkili və cəmiyyətə tam inteqrasiya olunmalarını təmin edən Bakcell sözügedən layihənin icrasında aparıcı beynəlxalq peşəkar xidmətlər şirkəti olan "PwC Azərbaycan"la səylərini birləşdirib. Bakcell və PwC şirkətlərinin əməkdaşlığı sayəsində bu layihə üzrə bütün fəaliyyətlər maliyyələşdirilərək daha çox uşağa dəstək olmağa imkan yaradılıb. Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) Mərkəzində həyata keçirilən rəsm, rəqs və teatr dərnəyindən ümumilikdə 75 uşaq yararlanıb. Xaçmaz İƏR mərkəzində isə 24 uşaq rəqs və rəsm dərnəklərinə cəlb olunub.

Valideynlər keçirilən dərnəklərin uşaqların həyatında böyük rol oynadığını dəfələrlə qeyd ediblər. Aşağı ətrafların inkişafdan geri qalması çətinliyi olan Rəsul Zəkiyevin anası Mehriban Zəkiyeva deyir ki, "İncəsənət vasitəsilə ünsiyyət" onun oğlunun inkişafında mühüm rol oynayıb: "Oğlum noyabr ayından Yasamal İƏR mərkəzində fəaliyyət göstərən rəsm dərnəyinə gedirdi. Bu məşğələlər müddətində Rəsulun özünəinamın artdığını, həmyaşıdları ilə həvəslə ünsiyyət qurduğunu gördüm. Həmçinin rəsm çəkməklə oğlumda gizli qalmış istedadı aşkarlamış olduq. Bu hal məni çox sevindirir və oğluma dəstək olan hər kəsə təşəkkür edirəm".

Qeyd edək ki, bu dərnəklərdən 2010-cu ildən başlayaraq Bakcell şirkətinin dəstəyi ilə davamlı şəkildə həyata keçirilən bu layihədən hər il onlarla uşaq bəhrələnir və uğur qazanır. "Bu vaxta kimi Xaçmaz İƏR mərkəzinin dərnəklərindən yararlanan uşaqlar şahmat, dama, armresling yarışlarında uğurla iştirak edərək mükafatlar qazanıb. Uşaqların çəkdiyi rəsmlər dəfələrlə müxtəlif sərgilərdə nümayiş olunub. Rəqs dərnəyinə qatılan uşaqlar Əlillərin VII Ümumrespublika Bədii Yaradıcılıq Zona Baxış Müsabiqəsində iştirak edərək xüsusi diplomlarla təltif olunublar. Ənənəvi olaraq hər il keçirilən 3 dekabr Beynəlxalq Əlillər Günü, Yeni İl şənliyi,



Novruz bayramı, 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü kimi bayram tədbirlərində iştirak təkcə uşaqların deyil, onların valideynlərin də həyatında dəyişikliklərə səbəb olur", deyə UAFA-nın Xaçmaz İƏR mərkəzinin Koordinatoru Kəmalə Əliyeva bildirib.

Yasamal İƏR mərkəzinin Valideyn Birliyi Koordinatoru Zəhra Xəlefova deyir ki, Mərkəzdəki dərnəklərə qatılan uşaqlar müxtəlif tədbirlərdə böyük həvəslə iştirak ediblər: "Müasir İncəsənət Muzeyinin "Sehirli çubuq" layihəsi çərçivəsində bizim uşaqların rəsmlərindən ibarət kitab çap edilib. Novruz bayramında uşaqlarımız Rəssamlar Akademiyasında keçirilən "Saf Rənglər" adlı rəsm sərgisində uğurla iştirak ediblər. 1 iyun Uşaqların Beynəlxalq Müdafiəsi günü münasibətilə teatr dərnəyi "Qırmızı papaq" nağılını səhnələşdirdi. Bunların hamısı uşaqların aylarla dərnəklərdə öyrəndiklərinin bəhrəsi idi".

Bakcell şirkətinin UAFA təşkilatı ilə sıx əməkdaşlığı 2010-cu ildən başlayıb və həmin vaxtdan bu günə qədər olan müddət ərzində "UAFA"nın Gəncə, Xaçmaz və Yasamal İcma Əsaslı Reabilitasiya (İƏR) mərkəzlərində təşkil edilmiş dram, rəqs, rəsm və yaradıcılıq dərnəklərindən 1000 nəfərdən artıq uşaq bəhrələnib. Layihə çərçivəsində təşkil olunan dərnəklər cəmiyyətdə sağlamlıq imkanları məhdud uşaqlara və əlilliyə qarşı münasibəti dəyişir və bu uşaqların cəmiyyətə tam inteqrasiya olunmalarının təmin edilməsinə kömək edir.

# Paşinyan rəqiblərini neytrallaşdırır

## Keçmiş lideri Levon Ter-Petrosyan baş nazirə yol göstərir



***Dərin iqtisadi böhran içində olan Ermənistanda ictimai-siyasi vəziyyət getdikcə çətin duruma düşüb. Avqustun 17-nə baş nazir vəzifəsində olmağının 100-cü gününə hazırlaşan N.Paşinyan vəziyyətdən çıxış yolu axtarışındadır. Bir tərəfdən nazirliklərin istefaları, bir tərəfdən də Paşinyanın verdiyi vədlərin həyata keçirilməməsi xalqın hiddətinə səbəb olub. Ermənistan mətbuatı yazır ki, Paşinyan hökumətində böhran yaşanıb.***

Ölkənin əmək və sosial məsələlər naziri Mane Tandilyan baş nazir Nikol Paşinyanın qərarına etiraz edərək istefa verib. Mane Tandilyan bu sistemin əhaliyə sırınmasına qarşı çıxıblar. Tandilyan təklif edib ki, sistemin tətbiqini 1 il təxirə salaraq, ictimai müzakirələr aparsınlar və əhalinin də mövqeyini öyrənsinlər. Lakin Paşinyan onlara xatırladıb ki, parlamentin yox, hökumətin iclasındadırlar və baş nazir nə desə, o da olacaq. Nəticədə, səsvermə zamanı nazirlərin heç biri Paşinyanın qərarının əleyhinə getməyib və 1 iyuldan etibarən Ermənistanda məcburi maliyyələşən pensiya fondu sisteminin tətbiq edilməsinə dair qərar qəbul olunub.

Əmək və sosial məsələlər naziri Mane Tandilyan iclasda Paşinyanın təzyiqilə bu qərarın qəbuluna mane ola bilməməsini özünə bağışlaya bilməyib və vəzifəsindən istefa verib: "Bu məsələ mənim üçün prinsipial əhəmiyyət kəsb edir. Pensiya sistemində məcburilik elementi bundan əvvəl də əhalinin dəstəyini almamışdı, yenə də almayacaq. Çünki bu məsələdə çoxsaylı - sosial, hüquqi, siyasi və sistem problemləri var".

Qeyd edək ki, bir neçə gün əvvəl Ermənistanın bəzi rayonlarında pensiya və müavinətlərin artırılması ilə bağlı aksiyalar təşkil edilmişdi. Etirazçılar Paşinyan hökumətindən pensiyaların, ən azı 30 faiz qaldırılmasını tələb ediblər. Lakin hazırkı dövlət büdcəsilə bu tələbi qarşılaya bilməyən Paşinyan pensiya fondunu əhalinin gəlirlərindən tutulan məcburi ödəmələrlə doldurmaq qərarı verib. Hökumətin məcburi maliyyələşdirilən pensiya sistemi qərarına əsasən, 1 iyuldan etibarən 1974-cü il və daha sonra dünyaya gələn erməni vətəndaşları əmək haqlarının 2,5 fazini pensiya fonduna ödəməlidirlər. Ümumilikdə isə, bu sistemlə fonda gəlirlərin 10 faizi daxil olacaq, lakin onun 7,5 faizini dövlət özünə götürəcək. Paşinyan, hətta bildirib ki, gələcəkdə pensiya fondu üçün əhalinin gəlirlərindən tutulacaq məbləğ maaşlarının 5 faiz həcminə qaldırılacaq.

### Ölkəyə gətirilən investisiyalar hara gedir?

Məsələyə erməni ekspertlər də münasibət bildiriblər. Tatul Manaseryana görə, Paşinyanın bu addımı iqtisadidən daha çox siyasi qərardır. Çünki hökumət bu qərarı verməsəydi, məcbur olacaqdı ki, pensiyaları ödəmək üçün vergiləri artırsın. Manaseryan vurğulayıb ki, Ermənistanda son zamanlar demoqrafik azalma və cavanların ölkəni tərk etməsi nəticəsində, qocaların sayının artmasilə pensiyaçıların da sayı çoxalıb. Onların pensiyasını ödəmək isə dövlətin borcudur. Odur ki, ölkəni növbəti sosial-iqtisadi böhrandan qorumaq üçün əhalinin narazılığına baxmayaraq, Paşinyan bu cür riskə gedib. Lakin belə "risklər" Paşinyanın postu üçün olduqca təhlükəlidir.





### Nikol Paşinyan rəqiblərini neytrallaşdırmağı çıxış yolu bilir

Ermənistanın baş naziri Nikol Paşinyan əsas rəqiblərini - Qarabağ klanının aparıcı üzvlərini sıradan çıxararaq qarşısınındakı bütün əngəlləri aradan qaldırmaqda israrlı olduğunu nümayiş etdirir. Belə ki, işğalçı ölkənin ikinci prezidenti, Azərbaycana qarşı təcavüzkarlıq, terror siyasətinin həyata keçirilməsində xüsusi fəallıq nümayiş etdirən Robert Koçaryan və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi, erməni generalı Yuri Xaçaturova qarşı xüsusi ittiham irəli sürülüb. Ermənistanın xüsusi istintaq xidməti bu şəxsləri 2008-ci ilin mart ayında İrəvanda baş vermiş kütləvi qırğın və terror hadisəsinin törədilməsində təqsirli bilir.

Məsələ ilə bağlı fikirlərini bildirən "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu qeyd edib ki, Nikol Paşinyan parlament seçkilərinə hazırlaşır və ona görə də, rəqiblərini neytrallaşdırmaq haqqında düşünür. O bildirib ki, Paşinyan Serj Sarkisyana elə bir zərbə endirib ki, eks-prezidentin yenidən siyasətə qayıdışı mümkünsüzdür: "Növbə çatıb keçmiş prezident Robert Koçaryana. Paşinyan üçün Koçaryan Sarkisyandan az təhlükəli fiqur deyil. Ermənistan müstəqillik qazandıqdan bu yana bu ölkəni faciəyə sürükləyənlərin başında Robert Koçaryan dayanır. Məhz Koçaryan kimilərin "əməyi" sayəsində Ermənistan Azərbaycan və Türkiyə ilə düşmən olub".

Politoloqun fikrincə, Ermənistan siyasətindən Qarabağ klanının ortadan qaldırılmasını Paşinyana keçmiş lideri Levon Ter-Petrosyan məsləhət bilib: "Məsləhətin məğzi belədir ki, qarabağlıların Ermənistan siyasətində at oynatdıqları müddətdə Ermənistanı yaxşı heç nə gözləmir". E.Şahinoğlu hesab edir ki, Nikol Paşinyan qarabağlıları ustalıqla siyasətdən yox etməyə çalışır: "Məsələ burasındadır ki, Qarabağ klanının üzvləri Rusiyanın dəstəyinə arxayındırlar. Ancaq Moskva Serj Sarkisyanın istefasına və ətrafının həbsinə reaksiya verMədi, Koçaryanı da, hələ ki, dəstəkləmir. Nikol Paşinyan özünə o qədər arxayındır ki, Rusiyanın patronajlığı altında fəaliyyət göstərən Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşklatının erməni baş katibi Yuri Xaçaturovu həbs etmək istəyir".

Bütün bu reallıqlar, onu təsdiqləyir ki, Ermənistanın müstəqil dövlət olması hələ mümkün deyil. Lakin tarix göstərir ki, belə vəziyyət uzun müddət davam etmir. Haradasa qırılma nöqtəsi vardır. Ermənistan da bir dövlət kimi yaxın perspektivdə ciddi böhrana düşəcək. İndi mövcud olan problemlər birbaşa dövlətçiliyin taleyinə təsir edəcək. Bu acı taleyi yaşamamaq üçün yeganə çıxış yolu erməni silahlı quldur dəstələrinin işğal etdikləri Azərbaycan ərazisini tərk etməsidir.

Eyni zamanda, Ermənistanın baş naziri Paşinyan dialoq mədəniyyətinə yiyələnməlidirlər. Onun kobud, yöndəmsiz və radikal ritorikaları Ermənistanın quyusunu daha dərindən qazmaqdan başqa, heç nəyə xidmət etmir. Qəribədir ki, erməni xalqı qəflət yuxusundan ayılmaq istəmir. Bununla, o da özünü, bütövlükdə fəlakətə sürükləyir. Ancaq misal var - "özü yıxılan, ağlamaz"!

**A.SƏMƏDOVA**






# Arif Hacılı və Əli Kərimli yaramaz əməllərinin bədəlini ödəyirlər

*Bu gün siyasi arenada diqqətçəkən maraqlı məqamlardan biri də müxalif partiyalar daxilində ciddi qarşıdurmaların yaranması fonunda növbəti qopmaların baş verməsidir. Əli Kərimli, Arif Hacılı və digər xarici maraqlı dairələrin əlaltıları rolunda çıxış edən partiya sədrləri müxtəlif vasitələrlə qopmaların qarşısını almağa cəhd etsələr də, istəklərinə nail ola bilmirlər. Bir növ, batan gəmini xilas etmək mümkün olmadığı kimi, istefa qərarı verənləri də dayandırmaq mümkün deyil. Proses artıq gedir. Yaxın vaxtlarda əksər müxalif partiyalar dayaqlarının olmaması səbəbindən, fəaliyyətlərini dayandırmalı olacaqlar. İctimaiyyətin dağıdıcı müxaliflərə olan nifrəti partiyaların sıradan çıxmasını sürətləndirən başlıca amillərdəndir.*



ASDP sədri Araz Əlizadə əlləri xarici məkrli qüvvələrin cibində olan dağıdıcı müxalifətin satqın olduğunu və belə mövqe tutanlarln yanında kiminsə qala biləcəyinin inandırıcı olmadığını söyləyib: "Satqınlıq və xəyanət yolu tutanlara kimsə, o cümlədən, yerli və xarici qüvvələr dəstək verməz. Himayədarlıq yalnız müvəqqəti xarakter daşıya bilər. Sonra isə, yollar ayrılacaq. İndiki müxalifət təmsilçiləri bu reallığı dərk etməlidirlər".

### İnsanlar İ.Qəmbərə, A.Hacılıya, Ə.Kərimliyə və digərlərinə nifrət bəsləyirlər

Cəmiyyətin birmənalı mövqeyi ondan ibarətdir ki, dağıdıcı müxalifət milli və dövlətçilik maraqlarına qarşı qərəzli mövqe nümayiş etdirir. Bəzən xarici qüvvələrin maddi və mənəvi dəstəyinə arxalanaraq, ölkədəki mövcud ictimai-siyasi sabitliyi pozmağa və qarşıdurmalar yaratmağa cəhd göstərirlər. Təbii ki, bu da ictimai rəydə müxalifətə qarşı narazılıqlar yaradır. İnsanlar açıq şəkildə müxalifətin başbilənləri hesab olunan İ.Qəmbərə, A.Hacılıya, Ə.Kərimliyə və digərlərinə nifrət bəsləyirlər. Bunu müxalifət liderlərinin özləri də dərk edir və başa düşürlər. Ona görə də, çıxış yolunu xarici qüvvələrlə əməkdaşlıq münasibətlərini genişləndirməkdə görürlər. Faktlara istinadən demək olar ki, müxalifətin üzdə olan partiya funksionerləri birbaşa və ya dolayısı ilə xarici fondlara və təşkilatlara bağlı insanlardır. Qarşılıqlı əlaqələr fonunda ortada milli maraqların zərbə altına qoyulmasıdır. Dəfələrlə müxalifətin müəyyən ünsürlərinin "SOROS", "Stevan Çldrın", "Vestern Marşal" təşkilatları ilə əlaqələrinin olması sübuta yetirilib. Misal kimi, müsavatçı Əfqan Muxtarlının, eləcə də, AXCP sədr müavini Gözəl Bayramlının sözügedən təşkilatların ayırdıqları maliyyə vəsaitini Gürcüstandan Azərbaycana qaçaqmalçılıq yolu ilə keçirməyə cəhd edən zaman həbs olunmamaları göstərmək olar.

### Müxalifət boşboğalıq edir

Əgər bir qədər əvvəl AXCP və Müsavat funksionerləri ABŞ, Rusiya və ya Avropanın hansısa maraqlı dairələri ilə işbirliyi qurmağa cəhd edirdilərsə, bu gün artıq estafeti Leyla və Arif Yunuslar, eləcə də, xaricdəki "söyüş müxalifəti" götürüblər. Son günlər sözügedən şəxslərin sosial şəbəkələrdə müxtəlif bəyanatlarla çıxış etmələri və böhtan xarakterli videolar paylaşmaları heç də təsadüfi sayıla bilməz. Ancaq bu şəxslərin nə açıqlamalarından və paylaşmalarından asılı olmayaraq, Azərbaycan cəmiyyəti öz inkişafını və tutduğu yolu davam etdirəcək. Hansısa qüvvələrin bu yola əngəl yaratmaları qeyri-mümkündür. Bunun real fakt olduğu dəfələrlə sübuta yetirilib. Xatırlatmaq lazımdır ki, 2013-cü il prezident seçkiləri ərəfəsində Rusiyadakı maraqlı dairələrinin istəyi ilə "Milyarderlər İttifaqı" deyilən qondarma qurum yaradılmışdı. Məqsəd də ölkədə seçki prosesinə müdaxilə etmək və hansısa məkrli planları həyata keçirmək idi. Hətta "Milyarderlər İttifaqı"nın təmsilçiləri qismində qoca rejissor Rüstəm İbrahimbəyovun sədrliyi ilə Azərbaycan müxalifəti "Milli Şura" deyilən qondarma qurum da yaratdı. Amma nə baş verdi? Qısa müddətdən sonra "Milyarderlər İttifaqı" gərəksiz qurum olaraq, fəaliyyətini dayandırdı. "Milli Şura" isə seçkilərdə 1 faizlik baryeri keçə bilmədi. Bu isə, bu qüvvələrin Azərbaycan cəmiyyəti tərəfindən qətiyyətlə rədd edildiyini göstərdi. İndi də yuxarıda adları çəkilən şəxslərin fəallaşması heç nəyi dəyişməyəcək.

Bir sözlə, kimlərinsə sosial şəbəkələrdə ucuz şou qurması və milli maraqlarımız əleyhinə iş aparması boş qazanı danqıltmaqdan başqa bir şey deyil. Hay-küy də əhəmiyyətsizdir. Çünki hər bir məsələ reallığa söykənməli, faktlara əsaslanmalıdır. Müxalifət liderlərinin və onların təlimatlarını yerinə yetirən Avropadakı ünsürlər fərziyyələr irəli sürür və böhtan xarakterli ifadələr səsləndirilər. Bu isə, haqlı olaraq, boşboğazlıq kimi qiymətləndirilir.

**İ.ƏLİYEV**

# Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 42 əcnəbi saxlanılıb

*Dövlət Miqrasiya Xidməti (DMX) qanunsuz miqrasiyaya qarşı mübarizəni davam etdirir. DMX-dən AZƏRTAC-a bildiriblər ki, Xidmət tərəfindən avqustun 1-də və 2-də qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər nəticəsində ümumilikdə 42 əcnəbi saxlanılıb. Onlardan 10-u Hindistan, 7-si Türkmənistan, 5-i Gürcüstan, 4-ü Türkiyə, 2-si Birləşmiş Ərəb Əmirliyi, 2-si Pakistan, 2-si İraq, 2-si Tacikistan, 1-i Birləşmiş Krallıq, 1-i Rusiya, 1-i Əfqanıstan, 1-i Ukrayna, 1-i Moldova, 1-i Niderland, 1-i Filippin və 1-i İran vətəndaşıdır.*



Saxlanılmış 10 nəfər Hindistan, 1 nəfər Pakistan və 1 nəfər Türkiyə vətəndaşının qeydiyyat ünvanı üzrə yaşamadıqları, həmçinin 3 nəfər Türkmənistan (səyyar ticarət) və 1 nəfər Türkiyə vətəndaşının Azərbaycan Respublikasının ərazisində gəlişinin bəyan edilmiş məqsədlərini pozduqları, digər 25 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadıqları müəyyənləşdirilib. O cümlədən əvvəllər ölkə ərazisindən kənara inzibati qaydada çıxarılmış 1 nəfər 1982-ci il təvəllüdlü İraq vətəndaşı Ahmad Cabbar Kadim Tameeminin bilərəkdən pasport məlumatlarını dəyişərək Ahmad Qabar Kadim Tameemi kimi yenidən Azərbaycan Respublikasının ərazisinə daxil olduğu aşkarlanıb. Saxlanılmış əcnəbilərdən 31 nəfər barəsində inzibati qərarlar qəbul edilib. Digər əcnəbilərin Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.



**Təhmasib Novruzov**

# Dar düşünənlərə geniş fikir qapısı

***Azərbaycan bu gün dünyanın ən sürətlə inkişaf edən ölkələrindəndir. Bu, faktdır və bu faktı təkcə bizlər deyil, dünyanın ən mötəbər maliyyə qurumları, ən tanınmış siyasi xadimləri, dövlət və hökumət başçıları etiraf edir. Heç şübhəsiz, inkişaf, ümumilikdə, xoş kəlam olsa da, onun da bəzi ağrılı-acılı məqamları olur ki, biz də bu ağrılarla- acılarla birlikdə inkişafımızı davam etdirməliyik. Dövlət siyasətini dərindən anlamayan və ya anlayıb hər ağrı-acıdan yararlanaraq, iqtidarı tənqid etməyə çalışan oxucu, şübhə etmirəm ki, mənimlə razılaşmayacaq. Bu da, təbiidir.***

Demokratik cəmiyyətdə yaşayırıq, hər kəs haqlı olduğuna inandığı, yaxud siyasi maraqları baxımından, özünü haqlı olduğuna inandırmağa çalışdığı fikirləri söyləməkdə azaddır. Amma fikir söyləyəndə də, gərəkdir ki, ədalət deyilən məfhumu unutmayaq. Axı toyuq toyuqdur ki, o da su içəndə hər qurtumundan sonra göyə, el arasında deyildiyi kimi, Allaha baxır. Yəni nə deyirsənsə de, amma hər sözündə üzünü yaradana tut və haqq və ədalət tərəzisini unutma. Xülasə, bu dəfə nəqliyyatda qiymət artımından danışacağam. Daha doğrusu, bu qiymət artımı ilə bağlı bəzilərinin yaratmaq istədikləri ajiotajdan! Kimsə mənə bazar iqtisatiyyatına əsaslanan iqtisadi quruluşla idarə olunan elə bir dövlət göstərə bilərmi ki, orda zərərlə işləyən sahələri tədricən böhtandan çıxarmağa çalışılmasın? ABŞ, Böyük Britaniya, Fransa, Rusiya, Türkiyə,Yaponiya, Çin, Almaniya və s. kimi inkişaf etmiş ölkələrdə də zərərlə işləyən sahələri mənfi saldodan xilas etmək üçün hakimiyyət orqanları müxtəlifyönlü vasitələrdən istifadə edirlər. Yaxın keçmişdə, digər sahələrdə qiymət artımları müşahidə olunsa da, hakimiyyət əhalinin aztəminatlı təbəqəsini nəzərə alaraq, nəqliyyatda qiymətlərin artımına imkan vermədi. Nəticədə, nəqliyyat sahəsinin inkişafına və yenilənməsinə çəkilən bütün xərclər dövlət büdcəsi hesabına qarşılandı. O, zaman bizim bəzi-bəzi "vətənpərvər"lərimiz ağızlarına su aldılar və dövlətin bu humanist addımı ilə bağlı heç bir fikir səsləndirmədilər. "Bakubus" avtobuslarının alınmasına, onların əlavə texniki avadanlıqlarla təmin olunmasına, sivil sürücülərin hazırlanıb xəttə buraxılmasına dövlət nə qədər vəsait xərclədiyi haqqında məlumatı varmı, indi qara-qışqırıq salanların? Bəs metronun yeni stansiyalarının tikintisinə, köhnə stansiyaların əsaslı təmirinə, yeni və müasir tipli qatarların alınmasına çəkilən xərclərdən necə, danışdılarmı? Dəmiryol xətlərinin yenilənməsindən, Bakı-Sumqayıt xəttinə yeni, ən müasir tələblərə cavab verən qatarların alınıb buraxılmasından da danışan olmadı. Axı bunların hamısı əhalinin daha müasir, daha rahat nəqliyyatla təmin olunmasına istiqamətlənmiş tədbirlərdir ki, bu gün hər birimiz aybaay inkişaf edən nəqliyyat xidmətinin bu rahatlığından məmnunuq! Bütün bu xərcləri qarşılayan dövlət nə zamana kimi gündəlik xidmət nəticəsində nəqliyyat vasitələrinə dəyən zərəri qarşılamalıdır? Mən gündəlik ictimai nəqliyyatdan istifadə edən milyonlardan biriyəm. Hər kəs kimi mən də istərdim ki, nəqliyyatda qiymətlər daha ucuz olsun və mənim ailə büdcəmin xərcləri yüngülləşsin. Ancaq hər birimiz ailə büdcəmizə qənaət istəyi ilə dövlətin büdcəsinə zərər vurarıqsa, bu, ümumilikdə, ölkənin çökməsinə gətirib çıxarar ki, ağıllı iqtidarlar buna yol verməməmilidir. Azərbaycan iqtidarı da iqtisadi və humanitar siyasəti ilə dünyada tanınmış bir iqtidardır. Belədə hər gedişdə on qəpik zərərə düşməyimizi faciəyə döndərməyə çalışanlar papaqlarını qoyub qarşılarına, yaxşı-yaxşı düşünməlidirlər və özlərinə sual verməlidirlər: öncə VƏTƏN, yoxsa MƏN? Dar düşünənlərin cavabı məlumdur, onlara da geniş düşüncə pəncəsini təklif elədik. Qalanı qalır onların mənəviyyatının səviyyəsinə.

# Rüsvayçı tarixə söykənən acı həqiqətlər

*Və ya Müsavatla AXCP-nin çözülən çarəsiz "xəstəliyi"*

Müsavat-AXCP "davası" bitmək bilmir. Müsavatın üzvləri AXCP-ni, cəbhəçilərin isə Müsavatı "qınamaları" səngimir. Necə deyərlər, "şap elə bilir şupdadır" oyunu oynasalar da, kimin nə istədiyini yaxşı bilirlər. Daha doğrusu, "ayının armud məsələsi", xaricə nökərlik etməklə daha çox qrant əldə etmək fikrinə düşüblər. Vxtilə Müsavatı parlamentə qatıldığına görə digər partiyalar qınayırdılarsa, bu gün partiya funksionerlərir bir-birini ittiham edərək, kiminsə "xeyrinə" işləmədiklərini isbat etməyə cəhdlər edirlər. Hər iki partiya çapalayır, çalxalanır, amma biri o birinə "mən güclüyəm" deyə bilmir. Desəydi, bu qarşıdurmaya da son qoyulardı. Çünki hər iki partiyanı da istefalar öz ağuşuna alıb. AXCP və Müsavtda istefalar, sərt reaksiyalar verənlərin "açıb sandığının ağzını..." deyənlər də çoxalıb. Həmin sandıqda olan düyün isə yenə də qrant məsələsidir. Sabiq funksionerlər də,elə bunu deyir ki, özünü "lider" sayanların biri xaricə adam keçirməklə, biri pul qoparmaqla məşğuldur. AXCP bu vəziyyətdən istifadə edib, önə çıxmaq gücündə deyil. Çünki bu partiyanı da istefalar öz ağuşuna alıb. Sədrin sabiq müşaviri Şakir Abbasov istefadan sonra barəsində deyilən fikirlərə sərt reaksiya verməklə, "açıb sandığının ağzını". Ş.Abbasov hələ AXCP sıralarında olanda onu müsavatçı olmaqda ittiham etdiklərini söyləyib: "Biri xaricə adam keçirir, pulunu alır, biri də maaş güdür". Bunu da özünüz deyirsiniz, ay sabiq funksioner. Belə olan halda, niyə səsinizi vaxtında çıxarmırsınız? Deyirsiniz ki, bir qrup maaş alan var, adlarını müxalifətçi qoyublar. Düşüblər maaş almayan müxalifətçilərin üstünə ki, biz deyən olmalıdır. Ş.Abbasov iddia edib ki, AXCP sədri Əli Kərimli yan-yörəsindən açıq şəkildə qorxduğundan, səsini çıxara bilmir. Biri gedir Fransada oturub qurbağa yeyir, oradan mənə əmr verir, burdakı qəzeti idarə edir. Ayıbdır, olmaz axı belə. Ş.Abbasovun sözlərinə görə, qurultaya kimi AXCP-nin daxilində çox böyük narazılıq olacaq: "Vaxtilə "Milli Şura"ya dürtdükləri adamlar arasında əməlli-başlı oyun gedir. Mən də bu oyunu açıram".

Göründüyü kimi, AXCP-Müsavat partiyalarının birbirinə nifrət bəsləmələri və bir-birini "həzm" edə bilməməyi az qala bu partiyalar arasında "xroniki xəstəliyə" çevrilib, əlacı isə hələ də tapılmır ki, tapılmır. Nə qədər ki, hər şeylərini qranta qurban edirlərsə, bu"xroniki xəstəliy"in əlacı tapılmayacaq. "Su axar, çuxurun tapat" misalında deyildiyi kimi, Müsavatla AXCP arasında gedən bu "savaşın" hələ çox rüsvayçı oyunları üzə çıxacaq. Amma necə deyərlər, "dəyirman öz işindədir, çaxçux isə baş ağrıdır".

### Onlar bir-birlərinə güzəştə getməyəcəklər

Əslində, AXCP ilə Müsavat arasında baş verən qarşıdurma ilə yaranan proseslər, onu göstərir ki, hər iki partiyalardakı "mənəm-mənəmliliklə" bir-birilərinə güzəştə getməyəcəklərinin mümkünsüz olduğunu gözəl bilirlər. Çünki 1992-ci ildən başlayaraq, həm Ə.Kərimlinin, həm də İ.Qəmbərin Azərbaycan dövlətinə və xalqına qarşı xəyanət etməsi, antimilli sazişlərə, hətta ermənilərlə əməkdaşlığa dair müqavilələr imzalamaları onları cəmiyyətdə qəbuledilməz şəxslərə çevirib.

Digər bir fakt da sosial şəbəkələrdə müsavatçıların Ə.Kərimli haqqında, cəbhəçilərin isə İ.Qəmbər haqqında "meyxana" qoşması, ən təhqiramiz ifadələrdən istifadə etməsi artıq adi hal alıb. Hətta bəzi partiya rəsmiləri bu məsələdən kampaniya şəklində istifadə olunduğunu da etiraf ediblər. Qeyd edək ki, bir müddət öncə, Müsavat partiyasının Ali Məclisinin üzvü Mustafa Hacıbəyli bildirmişdi ki, sosial şəbəkələrdə Müsavat rəhbərinə qarşı təhqir dolu fikirlərin səsləndirilməsi kampaniyasının arxasında Ə.Kərimli dayanır.

Başqa-başqa adlar altında aparılan qarşılıqlı kampaniya isə hələ də davam edir. Bu kimi davamiyyət isə ənənəvi müxalifətin fiasko tendensiyasının reallaşmasına yetərincə təkan verməkdədir.

Bir sözlə hər iki partiya "çalxalanır", çalxalandıqca da bu partiyaların rəhbərləri bir-birilərini həzm edə bilmirlər. Bütün bu neqativlərin aradan qaldırılması üçün, görünür, hələ zamana ehtiyac var.

***Rəfiqə HÜSEYNOVA***

# KƏRİMLİ MANİPULYASİYASI

***Avropaya "siyasi mühacir" kimi getmək istəyənlərdən mitinqlərdə iştirak etmək və polislə qarşıdurma fonunda fotolar çəkdirmək tələb olunur. AXCP sədri Əli Kərimlinin "siyasi mühacir" biznesindən əldə etdiyi gəlirlərdən dəfələrlə yazmışıq. Ə.Kərimli haqqında səslənən haqlı ittihamlara cavab vermək əvəzinə, təxribatlar törədərək, öz cinayətlərini ört-basdır etməyə çalışır.***



Dövlətin ünvanına təhqirlər yağdıran Ə.Kərimli başa düşür ki, ictimaiyyəti çaşdırmaq üçün atdığı addımlar heç bir effekt verməyəcək və pul müqabilində dövlət maraqlarını anti-milli qüvvələrə satan digər şəxslər kimi, o da qanun qarşısında cavab verəcək. Bu haqda daha sonra... AXCP sədrinin "siyasi mühacir" biznesi bu gün hansı səviyyədədir? Ümumiyyətlə, baş verən son hadisələrdən sonra bu proses necə həyata keçirilir? Bütün bunlarla bağlı əldə etdiyimiz yeni məlumatlar diqqət çəkir. Məlum olub ki, AXCP sədri Ə.Kərimlinin "siyasi mühacir" biznesinin əsas ortaqlarından biri hazırda Hollandiyada yaşayan, "Azadlıq" qəzetinin keçmiş əməkdaşı Fikrət Hüseynlidir. F.Hüseynlinin məram və məqsədini anlamayan hər bir insandan 2500-3000 AVRO tələb edərək, onları "siyasi mühacir" kimi Hollandiyada yerləşdirəcəyi vədi ilə aldadaraq, pullarını mənimsəməsi ilə bağlı faktları işıqlandırmışıq. Məsələn, AXCP-nin Nizami rayon təşkilatının üzvü Vüqar Əzizovun başına gətirilənlər buna sübut ola bilər. Bu adamdan öncə, Ə.Kərimli 8000 manat, daha sonra isə F.Hüseynli 3000 AVRO pul alıb. AXCP-nin möhürü ilə V.Əzizova partiyanın saxta arayışını da verib. Məsələnin ən biabırçı tərəfi odur ki, AXCP-nin "siyasi mühacir"lik üçün verdiyi arayışlarda aşağıdakı cümlə xüsusi rəngdə verilir: "Polislə qarşıdurması olub, fotolar əlavə olunub". Rəzalətdir! F.Hüseynlinin "siyasi mühacir" biznesi ilə məşğul olduğunu, məhz buna görə təkcə Ə.Kərimliyə hesabat verdiyini sübut edən başqa bir məlumat əldə etmişik. "Azadlıq" qəzetinin baş redaktorunun müavini Rəhim Hacıyevin Avropaya üz tutmasından, yəqin ki, mətbuatdan məlumat əldə edənlər var. Bu adam Q.Zahidlə Ə.Kərimli arasında seçim etməli oldu. Heç şübhəsiz ki, R.Hacıyev hələ Azərbaycanda ikən "siyasi mühacir" biznesinin məbuatla bağlı tərəflərinə əsas cavabdeh şəxs idi. "Siyasi mühacir" kimi Avropaya göndəriləcək şəxsin haqqında şişirdilmiş məlumatları "Azadlıq"da dərc etmək onun vəzifəsi idi və buna görə pul da alırdı. R.Hacıyev Fransaya üz tutaraq, Q.Zahidlə birlikdə fəaliyyətlərini davam etdirəcəyini fikirləşmişdi. Lakin heç nə alınmadı. Q.Zahid onu yaxına buraxmadı. Əlacsız qalan R.Hacıyev F.Hüseynlinin təklifi əsasında Hollandiyaya üz tutub. Lakin bu da ona asan başa gəlməyib. Bunun üçün Fikrətə 1500 AVRO ödəyən R.Hacıyev sonda, bir neçə gün bundan öncə, Hollandiya Məhkəməsi tərəfindən deport edilib. Yəni R.Hacıyev Hollandiyadan qovuldu. Hazırda nə edəcəyini bilməyən R.Hacıyevin ağılsız hərəkətləri nəticəsində özü ilə apardığı ailəsi də çıxılmaz vəziyyətdə qalıb. Əldə olunan məlumatlara görə, Fikrətin ondan aldığı 1500 AVROnun qaytarılması üçün Hollandiyadan Ə.Kərimliyə skaypla zəng edən R.Hacıyev rədd cavab alıb və alınan pulun tələb olunan sənədlərə sərf olunduğunu bildirib. "Nida"çılara söz verilib ki, eynicinsli insanlarla normal əlaqənin yaradılması üçün bütün şərait yaradılacaq "Avropasayağı" geyim adı altında cırıq-cırıq şalvarlar geyinən, eynicinslilərin evliliklərinə normal baxan, lezbiyanlarla və geylərlə bağlı yaradılan təşkilatların üzvü olan "Nida"çılardan Hollandiyaya getmək istəyənlər daha çoxdur. Məsələn, dəqiqliyi heç bir şübhə doğurmayan mənbədən əldə olunan informasiyaya görə, son 2 ayda 9 nəfər cəbhəçi Hollandiyaya getmək üçün F.Hüseynli ilə əlaqə yaradıb. Onların bir hissəsi tələb olunan vəsaiti düzəltməklə məşğuldurlar. Ən dəhşətlisi isə budur ki, "Nida"çılara orada eynicinsli insanlarla normal əlaqənin yaradılması üçün hər cür şərait yaradılacaq. Hətta adını açıqlamadıqları 26-27 yaşlı bir "Nida"çı oğlanın artıq Hollandiyaya getdiyi, yaxın günlərdə onun başqa bir kişi ilə toy edəcəyi də bildirilir.

### Deputat: "Bu, saxtakarlıqdır, Azərbaycana və azərbaycançılığa qarşı xəyanətdir"

Ümumiyyətlə, AXCP-nin və digər dağıdıcı müxalifət partiya sədrlərinin müəyyən vəsait müqabilində ayrı-ayrı gənclərə üzvlük vəsiqəsi verərək, onları Avropaya "siyasi mühacir" kimi göndərmələri onlara nə vəd edir? Məsələyə münasibət bildirən millət vəkili Aydın Mirzəzadə bildirib ki, onlar, sadəcə olaraq, müəyyən qrup vətəndaşları xaricə göndərmək üçün firma rolunu oynayırlar: "Əvvəlcə vətəndaşlara üzvlük vəsiqəsi verir, sonra isə ildə bir neçə mitinq keçirir və həmin mitinqlərdə müəyyən olunmuş adamların guya polis tərəfindən tutulması, zorakılığa məruz qalması ilə bağlı fotosessiya nümayiş etdirir. Bununla həmin şəxslərin xaricə getməsini təşkil edir. Bu mexanizm Azərbaycan cəmiyyətinə çoxdan məlum idi. Maraqlıdır ki, həmin kommersiyalaşmış müxalifətin rəhbərləri Azərbaycanda qaldıqları halda, partiyaya yeni qəbul olunmuş bir üzv, qısa zamanda, sıxışdırılmaq adı ilə Avropaya mühacirət edir. Doğrudan da, sıxıntı varsa, niyə bu partiya rəhbərlərinə qarşı özünü göstərmir? Azərbaycan cəmiyyətində tanınmayan və heç vaxt, heç bir siyasi prosesdə iştirak etməyən şəxs birdən-birə Avropaya köç edir. Hesab edirəm ki, bu, ilk növbədə, Azərbaycan siyasi müxalifətinin milli maraqlardan çoxdan uzaqlaşmasından xəbər verir.

***RÖVŞƏN NURƏDDİNOĞLU***



## Sinoptiklər xəbərdarlıq edir: Leysan yağacaq, dolu düşəcək

Sinoptiklər ölkə ərazisində yağıntılı və küləkli hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a verdiyi xəbərə görə, Bakıda, Abşeron yarımadasında və ayrı-ayrı rayonlarda avqustun 6-dək şimal-qərb küləyinin əsəcəyi, arabir güclənəcəyi gözlənilir. Bəzi şimal və qərb rayonlarında avqustun 4-6-da şimşək çaxacağı, arabir yağış yağacağı, ayrı-ayrı yerlərdə yağışın leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi dağ çaylarında sululuğun artacağı bildirilir.

## Gömrüklə bağlı cərimələrin "eManat" köşklərində ödənilmə sistemi istifadəyə verilib

Gömrüklə bağlı cərimələrin "eManat" köşklərində ödənilmə sistemi istifadəyə verilib. AZƏRTAC xəbər verir ki, bu barədə Dövlət Gömrük Komitəsinin Fəaliyyətin Qiymətləndirilməsi və İnkişaf Proqramları Baş İdarəsinin Texnoloji İnnovasiyalar İdarəsinin rəisi Azər Abbasov deyib. O bildirib ki, artıq vətəndaşlar cərimələrini yalnız banklarda yox "eManat" köşklərində ödəyə bilər. Bu isə vətəndaşların ödəniş zamanı vaxt itkisinin qarşısını almağa kömək edəcək.

# İnsanların və millətlərin bərabərliyi uğrunda mübarizə (XIX əsrin sonları - XX əsrin əvvəlləri)

***Tiranlıq və despotluğa qarşı mübarizə hər bir maarifçiliyin şüarıdır və orta əsrlər mentallığının tamamlanmasının bariz göstəricisidir. M.F.Axundova görə Azərbaycanda bu dəyişikliklər ədəbiyyata da təsir etmiş, ədəbiyyat öz metod və ənənələrini dəyişmişdir. O, yazırdı: “Sədinin və Molla Rəfi Vaizi Qəzvininin dövrü keçmişdir. Əsrimiz başqa əsrdir. Məktubumuzda yazdığımız kimi, nəsihətləri və moizələri dinləyərək onlara əməl edəcəyinizi iddia etməyini Kəmalüddövlə və Ruhül-qüds hər ikisi bilirlər ki, insan cəmiyyəti uşaqlıq dövründən keçib, kamal dövrünə çatdıqdan sonra bu cür iddialar, bəşər təbiətinə müxalif olan iddialar sayılır”. Sosial-siyasi müstəvidə Azərbaycanda despotluğun və tiranlığın tənqidini Axundovun müəllimi Mirzə Şəfi Vazeh və Axundovla məktublaşan Qasım bəy Zakir öz üzərlərinə götürmüşdülər. Axundov Azərbaycan maarifçiliyinin müstəqil və gözlənilməz fenomeni kimi görünsə də, əslində, bu mənəvi prosesdə üç sələfinə (Zakir, Bakıxanov, Vazeh) daha çox borcludur.***

Ə.Abbasov yazır: “M.F.Axundovu müsəlman dünyasında islamın ən sərt tənqidçilərindən biri hesab etmək olar. Bundan başqa, o, ehtimal ki, Şərqdə dinin ilk tənqidçisi olmuşdur. Lakin Axundovun mövqeyi tipik maarifçi və bir qədər də akademik mövqe olmuşdur. Nəzərə alsaq ki, Axundov özü praktik maarifdən uzaq idi (bu həqiqəti onun mövqeyini tənqid edən Zərdabinin məktubu da təsdiqləyir). Əlbəttə, məsələ bununla məhdudlaşmır, daha dəqiq desək, əgər biz bu mütəfəkkirin Azərbaycan üçün şəxsiyyət və rolunu, həqiqətən, başa düşmək istəyiriksə, bu məqamla kifayətlənə bilmərik. Axundov müsəlman mədəniyyətinin, islam mentallığının, Şərq siyasi sisteminin Qərb analoqu ilə əvəz edilməsindən başqa digər dəyişiklik yolunu görə bilmirdi; əsasların, zəminin uçurulduğu bir məqamda isə hər hansı reformasiyadan söhbət gedə bilməzdi. Təsadüfi deyil ki, Axundov öz müasirlərindən çox fərqlidir, hətta Azərbaycan maarifçiliyinin davamçıları da onun irsinə az müraciət etmişlər. Bizə elə gəlir ki, burada məsələ onda deyil ki, Axundovun əsərləri, xüsusilə, onun sərt mülahizələri yalnız sovet dövründə ictimaiyyətin ixtiyarına verilmişdir. Ola bilsin ki, Axundovun marginallığı bütün kəskinliyi ilə nəzərə çarpırdı və onun islama münasibətdəki barışmazlığı Azərbaycanda sovetləşmə dövrünə qədər öz davamçısını tapmamışdı (əgər bir qədər sonra yaşamış S.Mehmandarovun radikal görüşlərini nəzərə almasaq). XIX əsrin sonu - XX əsrin əvvəlində meydana çıxmış və inkişaf etmiş Azərbaycan ziyalı təbəqəsi Axundovu öz bayrağına çevirmədi. Bu məqamda Axundovun ideallaşdırılması və ona sitayiş, bütövlükdə, sovet dövrünün məhsuludur. Bununla belə, bu tənha irsi onun ideyalarına, müsəlman Şərqinin və əzəmətli şəxsiyyətin millətin oyanmasına yönəlmiş fəaliyyətinə yeni yanaşma tələb olunur.

Azərbaycan maarifçiliyinin səciyyəvi cizgiləri haqqında bəzi mülahizələrimizi də bildirmək istərdik. Bu barədə bir çox xüsusi tədqiqatlar olsa da, biz belə hesab edirik ki, maarifçiliyin partlayış xarakteri əsas xüsusiyyət kimi göstərilməlidir və bu, ölkəni ənənəvi Şərq inkişafından qoparan Rusiyanın Azərbaycandakı müstəmləkəçilik siyasəti ilə bağlıdır. Azərbaycan maarifçiliyi əksərən bir-birinə qarşı duran mədəniyyətlərin, dinlərin, ənənələrin və mentallıqların mübarizəsi fonunda inkişaf edirdi; bu maarifçilik Şərq və Qərbin görüş və dialoqlarından biri idi. Azərbaycan öz tarixinin bu məqamına görə mütəəssir olurdu və indi də digər mədəniyyətlərin təzahürləri ilə təmasdan mədəni sarsıntı keçirməkdədir; belə təmasın gətirdiyi mədəni dəyişikliklər Azərbaycanı tarixi inkişaf əndazəli çərçivələrindən ardıcıl bir şəkildə sıxışdırıb çıxarmaqdadır”.

“Yek kəlmə haqqında” məqaləsində İran maarifçisi və dövlət xadimi Mirzə Yusif xan Müstəşərüddövlənin Fransa Konstitusiyası ilə islam şəriətini birləşdirimək yolu ilə Şərq qanunvericiliyi yaratmaq cəhdlərini qiymətləndirərkən, Axundov yazırdı: “Əgər şəriət ədalət çeşməsi isə, konstitusionun birinci əsası olan hüquq bərabərliyini mühakimələrdə icra etməlidir. Hüquq bərabərliyi yalnız kişi tayfasınamı məxsusdur? Şəriətin nə haqqı var ki, qadın tayfasını hicab ayəsi vasitəsilə daimi həbsə atıb, ömrü boyunca bədbəxt edir və yaşamaq nemətindən məhrum edir?” Axundova görə hüquq bərabərliyi yalnız cəmiyyət tərəfindən şəxsiyyət azadlığının qanunverici əsasda təsdiqi şəraitində mümkün ola bilər. “Əgər şəriət ədalət çeşməsi isə, o, konstitusionun üçüncü əsası olan şəxsi azadlığı icra etməlidir”.

Ə.Abbasovun fikrincə, M.F.Axundov ilk şəxsdir ki, islamda islahat zərurətini qaldırmışdır, onun protestantizmi, görünür yaxın dostu Mirzə Melkum xan vasitəsilə tanış olduğu mason ideologiyasından da qaynaqlanmışdır. Axundov belə hesab edirdi ki, Şərqdə sosial və mənəvi durğunluqdan çıxmaq üçün mason təşkilatlarının yaradılması son dərəcə mühümdür; bu təşkilatlar islamda islahat aparmağa kömək edə bilər. Bu məqamda Axundov, nəinki xarici ölkələrin təcrübəsinə müraciət edir, həmçinin, öz vərdişindən istifadə edib müsəlman ölkələri tarixində baş vermiş islahatçı hərəkatlara diqqət yetirirdi: “Dini-islamın davamı o surətdə mümkündür ki, şüur ilə və mərifət ilə dinin künhünü anlayıb, sonra millət sair miləldən imtiyaz tapmaq üçün müsəlmanlıqda baqi qalasan və onun əmali-xəfiyyəsinə və rüsumi-zahiriyyəsinə və onun həqqünnas xüsusunda olan əhkamına bəqeyrəz qətli-nüfus və qətiəza və bəqeyrəz bəzi təzyiq və təğyir ki, o əhkamda lazımdır, tabe olub bilkülliyyə təkalifi-şaqqəsindən ki, hüququllah adlanır, özünü azad edəsən. Necə ki, ingilis və Yeni Dünya və sair bir para Firəngistan təvaifi protestantdırlar. Yəni zahirən məsihi məzhəbdirlər, batinən əqlə tabedirlər və necə ki, Həsən ibn Məhəmməd Büzürg Ümmid İsmaili ki, Əla-Zikrihissəlam ləqəbi ilə məşhurdur, vəqta ki, məbadiyi-rüşdə yetişdi, həvəsi-təəllümiülum və əqavili-hükəma edib məsaili-əqli və nəqlidə bir alimimütəbəhhir və fazili-sərəməd oldu və öz məlumatını qələmə gətirib təvabelərinə xatirnişan elədi və islamda protestantizm məzbəbini icad etdi”.

M.F.Axundovun əsərlərinin əksəriyyəti mahiyyətcə o dövrdə dinin və mövhumatın qəribə vəhdətinə çevrilmiş şiəliyin məğzi əleyhinə yönəlmişdi. Mütəfəkkirin sağlığında deyil, yalnız 1924-cü ildə çap olunmuş fəlsəfi əsərlərində müəllif öz ateist mövqeyi barədə birbaşa bəyanat vermiş, islamı “ərəblərin dözülməz dini” adlandırmışdı. Hər bir insanın mənəvi və cismani azadlığı haqqında söz açarkən, M.F.Axundov yazırdı: “Tam azadlıq iki növ azadlıqdan ibarətdir: biri ruhani azadlıqdır, o biri cismani azadlıqdır. Şərq xalqları ərəblərin dininin zühur etməsi və onların Asiyada qüdrət tapması vasitəsilə tam azadlığı birdəfəlik itirdilər, bərabərlik ləzzətindən və bəşər hüququ nemətindən tamamilə məhrumdurlar. Yəni bu məhrumluğu anlamaqdan belə acizdirlər”.

Ə.Abbasov yazır: “Rusiya imperiyasının dövlət qulluqçusu olaraq Axundov, hətta bu monarxiyanın hüquqi normalan ilə kifayətlənmir, öz baxışlarını konstitusiya quruluşunun bərqərar olduğu Avropa ölkələrinə yönəldirdi. Beləliklə, Axundov Şərqin mütəfəkkirləri sırasında, ilk dəfə olaraq, konstitusiyaçılıq ilə islam normalarını əlaqələndirmiş şəxsiyyətdir. Təbii ki, Axundov ideyaları XIX əsrin ortalarında Azərbaycanın müstəmləkə şəraitində öz həllini tapa bilməzdi. Lakin bu ideyalar müstəqil ölkələr olan İran və Türkiyənin Axundovla sıx əlaqə saxlayan mütərəqqi xadimlərinə güclü təsir göstərirdi. Onun ideyaları, şübhəsiz ki, İranda ilk Konstitusiya quruculuğunun (məşrutə hərəkatının) təşəkkülündə və inkişafında öz rolunu oynamış, təklif etdiyi latın əlifbası ilk dəfə Türkiyədə 1928-ci ildə qəbul edilmişdir (Türkiyə bu zaman artıq dünyəvi dövlət yolunu seçmişdi). Formalaşmaqda olan Azərbaycanın ziyalı təbəqəsinə təsir göstərən Axundov bu nəsli, nəinki qabaqlamış, həmçinin, onun gələcək mənəvi inkişafını müəyyənləşdirmişdi.

1905-ci ilin siyasi prosesləri ali ziyalı təbəqəsini hərəkətə gətirdi: bu elita liberallaşma dalğasında azərbaycanlıların vəziyyətini dəyişmək imkanını gördü, çünki imperiyanın müsəlman xalqları ilə azərbaycanlılar daha çox ayrıseçkiliyə məruz qalırdılar. Bu təşəbbüs məcrasında iki istiqamət formalaşdı; biri Rusiyada islamın ardıcıllarını birləşdirən ümummüsəlman istiqaməti; digəri isə istisnasız olaraq, Azərbaycan problemlərinə yönəlmiş və buna görə də, Rusiya partiyalarına qoşulan milli istiqamət”.

Təxminən 150 il əvvəl şimali azərbaycanlıların özünüdərki prosesi müxtəlif səpkili dini-yerli və etnik dəyərlərin mürəkkəb yığını kimi ifadə olunurdu. Bununla əlaqədar A.Balayevin müşahidəsi maraqlıdır: “Hələ XIX əsrin ortalarında azərbaycanlıların özünüdərki “pilləli sistemə” malik olub əsas aşağıdakı komponentlərdən ibarət idi: 1. Böyük dini (islami) areala mənsubluğun dərki; 2. Türk dili tayfa birliyinə mənsubluq; 3. Konkret türk xalqına-Azərbaycan türklərinə mənsubluq; 4. Müəyyən regiona (şirvanlılar, naxçıvanlılar, qarabağlılar və s.) mənsubluq; 5. Məhdud (yerli) əlaqələndirmə və səciyyə”, Hər halda, Şimali Azərbaycanda sovet hakimiyyəti qurulanadək və onun ilk on ilində bu mürəkkəb etno-dini istiqamətdə müsəlman ümmətinə mənsubluq əhalinin özünüdərkinin əsas ünvanı olmuşdur. Yaranmaqda olan bütün partiyalar və siyasi təşkilatlar bu faktı, nəinki nəzərə almalı idi, həm də bu faktı öz proqram sənədlərində əks etdirməli idilər (bu proqram sənədləri isə çox vaxt bütün Rusiya müsəlmanlarını bir vahid ümmədə-icmada birləşməsinə yönəlirdi).

Əhməd bəy Ağayevin 1906-cı ildə yaratmış olduğu “Difai” (“Müdafiə”) və M.Vəkilovun 1907-ci ildə təşkil etmiş olduğu “Müdafiə” partiyaları müsəlman əhalisini hakimiyyətin özbaşınalığından və o illərdə başlamış millətlərarası silahlı münaqişələrdən qorumağı qarşılarına məqsəd kimi qoymuşdular. Bu ilk Azərbaycan yarımtəşkilatları, yarımpartiyaları son dərəcədə milli-dini zəmində birləşmişdilər və məhz bu xüsusiyyət onların leqallaşmasını çətinləşdirirdi. 1905-ci ilin avqustunda Rusiya müsəlmanlarının qurultayında Nijni-Novqorod şəhərində Ə.M.Topçubaşovun başçılığı ilə yaradılmış “Müsəlman Konstitusiyaçı” partiyası (“İttifaqı-Müslimin”-”Müsəlmanlar İttifaqı”) tamamilə başqa liberal xarakter daşıyırdı. Həmin qurultay Rusiyanın pravoslav əhalisi ilə müsəlmanların siyasi, mülki və dini hüquqlarının bərabərləşdirilməsi ilə yanaşı, imperiyanın bütün müsəlman əhalisini ümumi məqsədyönlü iş vasitəsilə birləşmək yollarını müəyyənləşdirmişdir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə “İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması” istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 4 avqust


## Alimlər xərçəngi 90 faiz dəqiqliklə diaqnozlaşdırmağı öyrəniblər

Rusiya Elmlər Akademiyasının Uzaq Şərq bölməsinin "Arktika" Elmi Mərkəzinin ekspertləri əmindirlər ki, baş beyinin ritmik fəaliyyətinin innovativ qeydiyyat cihazı Rusiyada onkoloji xəstəliklərdən ölüm hallarını azaltmağa imkan verəcək.



"vistanews" saytında yer alan xəbərə görə, unikal qeydiyyat cihazı iki ədəd hazırlanıb. Onların birindən Vladivostok alimləri, digərindən isə Maqadan mütəxəssisləri istifadə edirlər. Baş beyinin ritmik fəaliyyətini müşahidə edən həkimlər insan bədənindəki hər hansı orqanın xərçəngə tutulmasını 90 faiz dəqiqliklə diaqnozlaşdıra bilirlər. Mərkəzin alimləri bildiriblər ki, gələcəkdə bu cihaz onkoloqlarla yanaşı, ginekoloq, endokrinoloq, kardioloq, oftalmoloq və qastroenteroloqların da işini asanlaşdıracaq. Alimlərin fikrincə, tibb elmində xərçəngin diaqnostikası sahəsində bu cihaz qədər dəqiq vasitə olmayıb. Bu səbəbdən beynəlxalq ekspertlər, xüsusilə çinlilər Maqadan mütəxəssislərinin ixtirası ilə maraqlanırlar.

## Avstraliyada "selfi polisi" fəaliyyət göstərəcək

Avstraliya hökuməti turistlərin təbii gözəlliklər fonunda şəkil çəkdirmək həvəsindən yaranan təhlükənin qarşısını almaq üçün yeni polis bölməsi - "selfi polisi" yaratmağı planlaşdırır. Çünki bir çox hallarda turistlərin bu cür istəkləri onların ölümü ilə nəticələnir.



AZƏRTAC yerli KİV-lərə istinadla xəbər verir ki, yeni bölmənin əməkdaşları foto həvəskarları arasında populyarlığı ilə seçilən yerlərdə növbə çəkərək, onları gözlənilən təhlükə barədə xəbərdar edəcəklər. Belə ərazilərin daha çox ölkənin qoruq rayonlarında olduğu bildirilir. Həmin populyar obyektlərdən biri Kral Milli Parkında yerləşən qayanın çıxıntısıdır. Birbaşa okean üzərində yerləşən bu qaya selfi həvəskarlarının ən sevimli yeri hesab edilir. Lakin mütəxəssislərin rəyinə görə, kövrək qum dənələrindən ibarət olan qaya istənilən məqamda çökə bilər. Əlavə olaraq bildirilir ki, turistlərin ölümü ilə nəticələnən hadisələr sırasında selfi altıncı yeri tutur.

## "Instagram" və "Facebook"da yeni funksiya fəaliyyətə başlayacaq

"Instagram" və "Facebook" sosial şəbəkələrində yeni funksiya fəaliyyətə başlayacaq. AZƏRTAC xarici KİV-lərə istinadla xəbər verir ki, bundan sonra istifadəçilər sosial şəbəkələrdə keçirdikləri vaxta nəzarət edə biləcəklər.




"Instagram" və "Facebook"un rəsmi nümayəndələri Amit Ranadiv və Devid Qinzberq birgə bəyanatlarında qeyd ediblər ki, hər istifadəçi qabaqcadan sosial şəbəkədə keçirmək istədiyi vaxtı təyin edəcək. Limiti keçdikdə isə bildiriş gələcək.Bunun üçün qabaqcadan "Tənzimləmələr" bölməsində "Instagram"da "Sizin fəaliyyət", "Facebook"da isə "Sizin "Facebook"da vaxtınız" funksiyasını aktivləşdirmək lazım gələcək. Bundan sonra istifadəçilər gün ərzində sosial şəbəkədə nə qədər vaxt keçirdiyini öyrənə biləcəklər. Həmçinin istifadəçilər qabaqcadan qoyduqları limiti keçdikdə xəbərdarlıq alacaqlar.

## Şəhriyar Məmmədyarova beynəlxalq turnirin mükafatı təqdim olunub

İsveçrənin Bil şəhərində iyulun 21-dən start götürmüş beynəlxalq şahmat turnirinə yekun vurulub. AZƏRTAC xəbər verir ki, Bil Konqres Mərkəzində baş tutan bağlanış mərasimində qaliblərə mükafatlar təqdim olunub. Fəxri kürsünün ən yüksək pilləsinə Azərbaycan şahmatçısı, beynəlxalq qrossmeyster Şəhriyar Məmmədyarov qalxıb.




Azərbaycanın İsveçrədə və Lixtenşteyndəki səfiri Xanım İbrahimova tədbirdə çıxış edərək ölkəmizdə zəngin şahmat ənənəsindən və şahmatçılarımızın uğurlarından danışıb. O, ölkəmizdə şahmatın qədim tarixə malik olduğunu, müstəqillikdən sonra Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzü və yaranmış sosial-iqtisadi problemlərə baxmayaraq, idmanın digər növləri kimi, şahmatın da inkişafına yüksək diqqət və qayğı göstərdiyini vurğulayıb.

X.İbrahimova hazırda Azərbaycanda şahmata xüsusi dövlət qayğısının göstərildiyini və ölkəmizin Beynəlxalq Şahmat Federasiyasına üzv olan 180-dək ölkə arasında idmanın bu növünün inkişafına dair xüsusi Dövlət Proqramı qəbul etmiş yeganə ölkə olduğunu diqqətə çatdırıb.

Səfir Şəhriyar Məmmədyarovun Azərbaycan şahmat məktəbinin yetişdirdiyi dünya səviyyəli zəka ustalarından olduğunu bildirib və onu parlaq qələbə münasibətilə təbrik edib. Daha sonra qaliblərin mükafatlandırılması mərasimi keçirilib. Turnirin qalibi Şəhriyar Məmmədyarova mükafatı səfir Xanım İbrahimova təqdim edib. Qeyd edək ki, Azərbaycan təmsilçisi yarışın başa çatmasına bir tur qalmış turnirin qalibi olub. O, yarışın doqquzuncu turunda 57-ci gedişdə ağ fiqurlarla norveçli dünya çempionu Maqnus Karlsen üzərində qələbə qazanıb.

## "Barselona" yeni transferə hazırlaşır



"Barselona" heyətinə yeni oyunçu cəlb etməyə hazırlaşır. SİA-nın məlumatına görə, Kataloniya təmsilçisi seneqallı müdafiəçi Mussa Vaqeni transfer edir. 19 yaşlı futbolçu bu gün Kataloniyaya gedərək, tibbi müayinədən keçəcək. Transferin detalları açıqlanmayıb. Son mövsümü Belçikanın "Eypen" klubunda çıxış edən müdafiəçi Yupiler Liqada 26 qarşılaşmada iştirak edib. Seneqal millisində 11 oyun keçirən Vaqe DÇ-2018-də də iştirak edib.




## "Barselona" razılıq verdi: Vidal "Sevilya"ya qayıdır

"Barselona"nın müdafiəçisi Aleyş Vidal karyerasını yenidən "Sevilya"da davam etdirməyə yaxındır. Qol.az-ın AS nəşrinə istinadən yaydığı xəbərə görə, 28 yaşlı futbolçunun transferi barədə iki klub arasında razılıq əldə olunub. "Sevilya" keçmiş oyunçusunu geri qaytarmaq üçün kataloniyalılara 8 milyon avro təzminat ödəyəcək. Keçidin yaxın günlərdə açıqlanacağı gözlənilir. Qeyd edək ki, Vidal 2015-ci ildə məhz "Sevilya"dan "Barselona"ya transfer olmuşdu.

## Azərbaycan şahmatçıları FIDE-nin dünya reytinqində

Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov Beynəlxalq Şahmat Federasiyasının (FIDE) reytinq cədvəlində üçüncü yeri tutur. FIDE 2018-ci il avqustun 1-i üçün reytinq cədvəlini dərc edib. FIDE-nin rəsmi saytında bildirilir ki, 2018-ci il iyulun 1-i üçün reytinq cədvəlində 2801 xal ilə üçüncü yeri tutan Şəhriyar Məmmədyarov bu dəfə də həmin reytinq əmsalını və əvvəlki yerini qoruyub saxlayıb. Dünyanın ən güclü şahmatçılarının siyahısında birinci yeri yenə Norveç nümayəndəsi, hazırkı dünya çempionu Maqnus Karlsen (2841), ikinci yeri iddiaçılar turnirinin qalibi, amerikalı Fabiano Karuana tutur (2821). Siyahıda sonrakı yerləri çinli Din Lijen (2796), amerikalı Uesli So (2780), hollandiyalı Aniş Giri və rusiyalı Vladimir Kramnik (hərəyə 2779 xal), fransız Maksim Vaşye-Laqrav (2778), amerikalı Hikaru Nakamura (2777) və rusiyalı Sergey Karyakin tutur (2772). Azərbaycanın digər nümayəndəsi Teymur Rəcəbov da öz əmsalını (2751) və sıra nömrəsini (17) saxlayır. Reytinq əmsalını 2711-ə çatdırmış Arkadi Naydiç 47-ci mövqedən 33-cü yerə qalxıb. Dünya üzrə ilk yüzlüyə Azərbaycan qrossmeysterləri Rauf Məmmədov (2708, 38-ci yer), Eltac Səfərli (2676, 65-ci yer) və Qədir Hüseynov da daxildir (2665, 77-ci yer).


*Baş redaktor:*
Bəhruz Quliyev
*Baş redaktorun müavinləri:*
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500